

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 39 (24.421)

28 sentyabr 2024-cü il, şənbə

www.serqqapisi.gov.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# ZƏFƏRİN səhəri



## Tariximizin şanlı səhifəsinin açıldığı səhər

Həmin gün, Günəş oyanmazdan əvvəl başlamışdı zəfər yürüşü. Sərin bir payız günündə yaz Günəşi doğuldu Azərbaycan səmasında. Cocuq Mərcanlıdan başlayıb, Talışdan, Günnütdən keçən yol bizi zəfərə səslədi həmin səhər. “Biz zəfər qazanacağıq, bizim işimiz haqq işidir!”, “Qarabağ Azərbaycandır!” şüarı ilə yola çıxdıq. Bir xalqın 30 illik həsrətini sonlandırmağa, Xocalıda yerə atılan örpəyimizi ayaqlar altından götürməyə, illərdir, həsrətdə qalıb solan xarıbülbülün qisasını almağa, Vətənin yaralı ürəyinə məlhəm olmağa can atdı oğullarımız. Düşmənin 30 illik “keçilməz” səddini yarmağa, yurdundan didərgin düşən bir milyon evsiz insanı öz yurduna qaytarmağa. Sönən ocağımızı yandırmağa, çırağımızı işıqlandırmağa, 1990-cı illərdə Vətəni üçün əliyalın döyüşüb şəhid olan oğulların naməlum məzarlarını məlum etməyə, Ağdamın ağ gününü qaytarmağa, İsa bulağının zümzüməsini dinləməyə, Vətənindən ayrı düşən Qarabağ atını Cıdır düzündə şahə qaldırmağa, üçrəngli bayrağı zirvələrə sancmağa gedirdi Azərbaycan əsgəri. Hüququndan keçən əsgər şanlı Vətəni üçün can verdi, amma geri dönmədi. Kimi gözünün nurunu, kimisi əlini, ayağını, kimisi isə canını, arzularını, xəyallarını Vətənə qurban verdi. Tarix belə Vətən sevgisi, belə birlik görməmişdi, bu günə kimi, bəlkə də.

Səhifə ⇨ 2

## Prezident İlham Əliyev Zəfər parkında olub



Sentyabrın 27-də – Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda inşası davam etdirilən Zəfər parkında olub.

Dövlətimizin başçısı parkın girişində xatirə daşının önünə gül dəstəsi qoydu.

Qeyd edək ki, Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış Vətən müharibəsinin başlamasından dörd il ötür. Xalqımız Azərbaycanın ərazi bütövlüyü, Qarabağın azadlığı naminə canından keçmiş Vətən övladlarının xatirəsini ehtiramla yad edir. Bakının 8 Noyabr prospektində inşası davam edən Zəfər parkı da bu ehtiramın təcəssümüdür.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamla inşası davam etdirilən layihəyə əsasən torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində Zəfər muzeyi də yaradılır. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

## Qarabağ səfəri:



Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin siyasi iradəsi, qətiyyəti ilə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra əzəli yurdlarımıza, Qarabağın hər qarışına həyat qayıdır, tarixi ənənələr bərpa edilir, təhsil, səhiyyə, turizm, iqtisadiyyat sahələri yenidən dirçəldilir. Bu baxımdan “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası müstəsna əhəmiyyət daşıyır ki, ötən dövrdə reallaşdırılan layihələr bu əhəmiyyətin əyani göstəriciləridir. Ölkə başçısının ötən həftə, daha dəqiq desək, sentyabrın 19-20-də Ağdam, Şuşa və Xankəndiyə səfəri zamanı təməli qoyulan yaşayış məntəqələri, sosial obyektlər, istifadəyə verilən müəssisələr də Qarabağa Böyük Qayıdışın mühüm töhfələri kimi ayrı-ayrı istiqamətlər üzrə yeni perspektivlər açdı...

Səhifə ⇨ 3

# ZƏFƏRİN səhəri

## Tariximizin şanlı səhifəsinin açıldığı səhər



(əvvəli 1-ci səhifədə)

***Bir xalqın öz qüruru və şərəfi uğrunda mübarizəsi***

Bu xalq 30 il sülh istəyərək dözmüşdü, səbir etmişdi. Torpaqlarımızın işğaldan azad olunması üçün 30 ilə yaxın diplomatik danışıqlar prosesinə ümid bəsləmişdik. Düşündük ki, indi artıq ibtidai icma quruluşu deyil, XXI əsrdir. Dünya bu qədər ədalətsiz deyil, Azərbaycanın BMT və beynəlxalq hüquq tərəfindən tanınmış ərazi bütövlüyünün bərpasına nail olmaq üçün işğalçını yerində oturdacaq. Amma yanılmışıq. Çünki dünya güclünü qalib sayan, gücsüzü görməzdən gələn köhnə dünya idi. Yanılan isə təkcə biz deyildik. Elə qoca, ədalətsiz dünya da yanılmışdı. İki əsrdən çoxdur, tarixi torpaqları zaman-zaman əlindən alınan, yarımcan edilən ən sülhsevər xalqın səbir kasasının bir gün daşacağını və silaha əl atacağını heç kəs gözləmirdi.

Kimsənin ağlına belə gəlmirdi ki, döyüşdə silahının patronu qurtaran əsgər düşmən səngərinə əliyalın girib, işğalçını əlləri ilə boğacaq, şəhid anası göz yaşlarını gizlədib, övladının tabutunu özü daşıyıb "Sinəndən vuruldun, sənə halal olsun", – deyəcək. Şəhid atası oğlunun tabutunun qarşısında qurban kəsəcək. Həyat yoldaşını Vətən müharibəsində itirən gəlinlər onun tabutunu çiynində əbədiyyətə yola salıb yarımçıq qalan xəyallarını Vətənə qurban verəcək. İki oğlunu eyni gündə torpağa tapşıran ata Ali Baş Komandana "Müharibəni dayandırmayın, son damla qanımıza kimi döyüşək, təki azad olsun yurdumuz" kimi teleqramlar vuracaq. Heç kimin ağlına gəlmirdi ki, təqaüddə olan qocalar müavinətini, torpağa alın tərini qatıb ruzi qazananlar illik ruzilərini orduya bağışlayacaqlar. Bir evdə beş oğul varsa, beşi də müharibəyə getməyə can atacaq. Okeanın o tayında təhsil alan gənc təhsilini yarımçıq qoyub Qarabağın azadlıq savaşına qatılacaq. Düşmənin evini xarabaya çevirdiyi sakinlər "Var-dövlətimiz Azərbaycan əsgərinə qurban olsun, təki Vətən sağ olsun", – deyəcək. Bütün bunlar 4 il öncə Azərbaycanda baş verirdi. Biz bunları kitablardan oxumadıq, kinofilmlərdə görmədik, yaşadıq. 44 günlük Vətən müharibəsində yaşadıq. Bu, 30 illik işğaldan bezən xalqın öz qüruru və şərəfi uğrunda mübarizəsi, həm də susqunluğu ilə işğalçıya faktiki olaraq dəstək verən dünyanın ədalətsizliyinə etirazı idi.

Azərbaycan xalqı 44 gün ərzində təkcə Ali Baş Komandanı, ordusu, həkimi ilə deyil, müəllimi, kəfən pulunu Silahlı Qüvvələrə Yardım Fonduna köçürən təqaüdçüsü, satdığı meyvələri əsgərlərə bağışlayan kəndlisi ilə də tarix yazdı.

27 sentyabr günü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqa müraciətində deyirdi: ***"Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır".***

***Şəhidlərin qisası alındı***

Həmin gündən hər bir azərbaycanlının gözü yolda, qulağı səsdə qaldı. Ali Baş Komandanın xalqa müraciəti səbirsizliklə gözlənildi. İlk müjdələnən Suqovuşan, qələbə şəhəri Cəbrayıl, sonra Füzuli, Zəngilan, Qubadlı, Hadrut oldu. Hamının gözü Şuşada idi. Müzəffər Sərkərdə də deyirdi axı ***"Şuşasız işimiz yarımçıq olar"***. Və həmin gün gələndə bütün dünya şahid oldu bu xalqın gücünə. Keçilməz dağları Vətən sevgisi ilə aşan, sıldırım qayalara şəhidi çiyinində qalxan Azərbaycan əsgərinin cəsarəti, Vətən sevdası dillərə dastan oldu. Həmin şanlı gün gələndə bu xalqın sevinci dünyaya sığmadı. Ata vəsiyyətini yerinə yetirən oğul olmaq şərəfini qazanan Ali Baş Komandan müjdəni xalqına Şəhidlər xiyabanında verdi. Və 8 Noyabr "Zəfər Günü" kimi tarixə yazıldı. Bir gün sonra Azərbaycan Respublikasının 9 Noyabr – Bayraq Günündə düşmənin qəddi sındı. Təslim olan Ermənistana döyüş meydanında dərs keçən Ali Baş Komandan hərb meydanındakı qələbəni siyasi masada da qələbəyə çevirdi. Ağdam, Laçın, Kəlbəcər bir güllə atılmadan, bir şəhid verilmədən azad edildi.

Bu müharibədə qazanılan zəfər təkcə öz tariximizi yox, həm də regionun və dünyanın tarixini yenidən yaratdı. Alman faşizmindən daha qədim olan erməni faşizminə "dəmir yumruğ"umuzla sarsıdıcı zərbə vurduq. Postsovet məkanında 1945-ci ildən sonra keçirilən ilk Qələbə paradına da biz imza atdıq. Hamı gördü ki, bu xalq torpaqlarının işğalına 30 il səbir edə bilər, amma bununla barışa bilməz. Bütün dünyanın gözü 44 gün Azərbaycanda qaldı. Onlar oğullarımızın igidliyindən, qəhrəmanlığından danışdı. "Belə döyüş, belə dövlət, belə Vətən sevgisi görən olubmu? Azərbaycan əsgəri dağ yuxarı, həlak olmuş yoldaşı çiyinində, döyüşə-döyüşə, qan-tər içərisində qalxırdı. Nə yaralını, nə də öləni əldən buraxırdılar. Budur vətənpərvərlik! Budur Vətən sevgisi! Budur torpağa bağlılıq!" yazdı mətbuat nümayəndələri.

***Bir günü əsrə bərabər 44 gün***

Cəmi 44 gün. Bu rəqəm kimiləri üçün çox kiçik bir zaman kəsiyi kimi görünsə də, bu xalq üçün hər saniyəsi bir əsrə bərabər oldu. Çünki biz həmin 44 gündə illərdir, qəlbimizdə saxladığımız yaranı sağaltdıq. Biz həmin 44 gündə canımızdan can olan 3 min oğulu Vətən torpağına tapşırdıq. Biz həmin o 44 gündə Şuşamıza qovuşduq. Ana bətnindən çıxarılıb düşmənin qanlı süngüsünə keçirilən körpələrin, arzusu ürəyində Vətən olan oğulların qisasını aldıq. 44 gündə yüz illər yaşayacaq Zəfər dastanı yazdıq. Qarabağ uğrunda gedən döyüşlər bir xalqın yenidən oyanışı, özünə qayıdışı məzlum, məğlub xalq adının qanla silinməyi oldu. Bir payız günü yaz Günəşi doğuldu Azərbaycanın səmasında. İllər öncə Naxçıvanda Ulu Öndərin xalqı ilə bir olub düyünlədiyi yumruğun dəmirə dönüb düşmənin başına şimşək kimi çaxmasından sonra doğan Günəş idi bu Günəş. Bütün Azərbaycanı nura qərq edən. Gələcəyin işıqlı günləri. Və budur Zəfərin 4-cü ildönümündə Müzəffər Sərkərdənin Qarabağa səfərlərini izləyir, öz evinə, ocağına tələsən insanları görürük. Qapılarını gənclərin üzünə açan Qarabağ Universitetinə gələn tələbələri izləyirik. Cənnətə dönən Şuşanı, ağ günlərinə qayıdan Ağdamı görür, Laçının gözəlliyini seyr edirik.

*Həmin günü – 27 sentyabrı artıq 4-cü ildir ki, "Anım Günü" kimi qeyd edirik. Xəyallarını Vətənə qurban verən oğulların məzarını ziyarət edəndə sinədaşını bəzəyən xonçaları, ata əvəzinə məzardaşını qucaqlayan övladları görəndə dilə gəlir qəlbimiz və deyirik ki, haqqını Azərbaycan xalqına halal et xəyallarını bu Vətənə qurban verib, bəy taxtını tabutla, bəy köynəyini bayraqla əvəz edən oğul, haqqını bu Vətənə halal et, ata üzü görməyib şəhid atasının adını daşıyan körpə, haqqını bu xalqa halal et, canından çox sevdiyi balasını Vətənə qurban verib, nişan xonçalarını məzara gətirən yollara dikilən gözlərinə əbədi həsrət çökən ana, dilində qardaş kəlməsi donan bacı. Haqqını bu xalqa halal et, məzarsız şəhid.*

**Ramiyə ƏKBƏROVA**




**Prezident İlham ƏLİYEV:**

***"İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi... Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq."***



# Qarabağ səfəri:

## tarixi təhsil, mədəni ənənələrin bərpası, yeni iqtisadi, turizm perspektivləri



*(əvvəli 1-ci səhifədə)*

Prezidentin Qarabağa hər gəlişinin işğaldan azad olunan torpaqlarımız, soydaşlarımız üçün yeniliyin, tərəqqinin, inkişafın müjdəsinə çevrildiyini vurğulayaraq Ümummilli Liderimiz Heydər Əliyevin ***“Təhsil millətin gələcəyidir”*** kəlamına uyğun səfərə ilk olaraq məhz bu aspektdən yanaşmaq istərdik. Öncə onu da qeyd edək ki, budəfəki səfərin mühümlüyü həm də ərazi bütövlüyümüzün, suverenliyimizin tam təmin olunmasına vəsilə olan antiterror əməliyyatının birinci ildönümünə təsadüf etməsində idi. Əzəli yurdumuza ali təhsilin qayıdışından xəbər verən Qarabağ Universitetinin açılışından sonra müəllim və tələbələrlə görüşü zamanı dövlətimizin başçısı da bu məqama xüsusi toxundu, universitetin yaradılmasını tarixi hadisə kimi dəyərləndirdi. Sitat: ***“Bu gün, eyni zamanda Qarabağ Universitetinin açılışıdır. Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu artıq şanlı tariximizdir. Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir və keçən ilin noyabrında müvafiq Sərəncam imzalandı. Sonra mən buraya baş çəkdim. Artıq mənim buraya üçüncü gəlişimdir və bütün göstərişlər verildi, Elm və Təhsil Nazirliyi tezliklə bütün lazımi tədbirləri gördü”.***



Onu da vurğulamaq yerinə düşər ki, 2024-2025-ci tədris ilində 1104 tələbənin ali təhsil alacağı Qarabağ Universitetinin açılışı həm də bölgədə mövcud tarixi təhsil ənənələrinin bərpasına xidmət edir. Təqvimi yarım əsr geriyə çəkməyimiz yetərlidir ki, bu ənənənin necə yarandığını, xalqımızın həyatında böyük önəmə malik hansı tarixi hadisə ilə üst-üstə düşdüyünü öyrənək. Məlum olduğu üzrə bu təhsil ocağının yaranması ötən əsrin 60-70-ci illərinə, yəni Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövrünə təsadüf edir. Daha dəqiq desək, təhsil müəssisəsi elə 1969-cu ildə Ulu Öndər Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi zaman Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib, ərazilərimizin işğalı dövründə isə, ümumiyyətlə, fəaliyyətini dayandırıb. Və təqdirəlayiq haldır ki, artıq Qarabağ Universiteti adına layiq şəkildə, mövcud tarixi yerində – Xankəndidə fəaliyyətə başlayır. Qarabağ Universitetinin tələbə yataqxanasının təmirdən sonra açılışı isə daha çox tələbələri öz Qalib Liderini özünəməxsus qarşılama forması, səmimi görüntüləri ilə yaddaşlara həkk olundu deyə bilərik...

Sentyabrın 19-da qədim tarixi torpağımızda əsaslı təmirdən sonra istifadəyə verilən, 1945-ci ildən Xankəndi məktəbi kimi fəaliyyət göstərən Nizami Gəncəvi adına Xankəndi şəhəri 4 nömrəli 624 şagird yerlik tam orta məktəbi də tarixi ənənələrin yaşadılmasına töhfə verməklə yanaşı, müasir təhsil çağırışlarına cavab verir. Belə ki, layihəsi 0,67 hektar ərazini, 3760 kvadratmetr ümumi sahəni əhatə edən məktəbdə 11 sinif otağı, kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 2 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, həmçinin yeməkxana yaradılıb.

Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi məqsədilə uğurlu sənayeləşmə siyasəti aparılır ki, bu xüsusda sənaye parklarının yaradılması mühüm səmərəsi ilə seçilir. Hazırda 8 rayonu əhatə edən “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları fəaliyyət göstərir və onlardan ikisi işğaldan azad olunan Ağdam, Cəbrayıl rayonlarında yerləşir. Bu mənada, sentyabrın 19-da Prezidentin Ağdama səfəri rayonda yaradılan Sənaye Parkında yeni zavodların açılışı ilə də yadda qaldı. Müxtəlif təyinatlı ayaqqabıların, elektrikpaylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının, avtomatlaşdırma və telemexanika sistemlərinin, divar kağızların, havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları və dam örtüklərinin istehsalını həyata keçirəcək bu müəssisələr bölgənin iqtisadi mənzərəsinin formalaşmasında böyük rol oynayacaq. Eyni zamanda bu addım Prezident cənab İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi siyasətin ən vacib istiqamətlərindən biri sayılan sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafına təkan verəcək.



Qarabağ torpaqları xalqımızın tarixi-mədəni dəyərlərini özündə yaşatmaqla yanaşı, füsunkar təbiəti, yeraltı və yerüstü sərvətləri ilə geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi, istirahət, eko və digər turizm növlərinin inkişaf etdirilməsi üçün böyük perspektivlər vardır ki, biz son dövrlərdə bu perspektivlərdən səmərəli istifadənin şahidi oluruq. Yaxın vaxtlarda Kəlbəcərdə “İstisu” mineral su zavodunun istifadəyə verilməsini, “yaşıl enerji” infrastrukturunun qurulmasını, hazırda tikintisi uğurla davam etdirilən “İstisu” Müalicə-İstirahət Kompleksini nümunə kimi göstərə bilərik. Sentyabrın 19-da açılışı olan “Aghdam City Hotel”i də regionun turizm potensialından səmərəli istifadənin təmini baxımından Ağdamın rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi üçün mühüm addım kimi dəyərlidir. Bölgəyə üz tutan turistlərin, qonaqların yüksək səviyyədə qidalanmalarına geniş imkanların yaradıldığı hoteldə fiziki məhdudiyyətlilər üçün xüsusi dizayn edilmiş 4 otaq, o cümlədən sağlamlıq və istirahəti təmin etmək məqsədilə fitnes və SPA mərkəzləri də fəaliyyət göstərəcək.



Prezident cənab İlham Əliyevin Qarabağa növbəti səfəri bir sıra yaşayış məntəqələrinin təməlinin qoyulması, təhsil, turizm obyektlərinin istifadəyə verilməsi, müasir yol infrastrukturu quruculuğunun reallaşdırılması ilə yanaşı, tarixi-mədəni irsimizin bərpası baxımından da əlamətdar oldu. Belə ki, milli musiqimizin yaradıcısı, dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum gününün ərtəsi – sentyabrın 19-da ölməz sənətkarın Şuşada ev-muzeyi bərpadan sonra istifadəyə verildi. Bu xüsusda onu qeyd etmək yerinə düşər ki, Üzeyir Hacıbəylinin evi XIX əsrdə inşa olunub, 1959-cu ildən Şuşa işğal edilənədək həmin binada ev-muzeyi fəaliyyət göstərib. Muzeydə Hacıbəylilər ailəsinə məxsus ev əşyaları, həmçinin bəstəkarın şəxsi əşyaları, fotomateriallar, kitablar – ümumilikdə, 1700 eksponat qorunub saxlanılırdı. Şuşa şəhəri ermənilər tərəfindən işğal edildikdən sonra muzey fəaliyyətini dayandırıb, eksponatları talanıb, binası isə dağıdılıb, mövcud 1700 eksponatdan yalnız 136-nı qorumaq mümkün olub. Ev-muzeyində Heydər Əliyev Fondu tərəfindən 2022-ci ilin aprel ayından bərpa işləri aparılıb. Bu məqamda onu xüsusilə vurğulamalıyıq ki, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu həm xaricdə, həm də ölkəmizin hər yerində, o cümlədən də işğaldan azad olunan torpaqlarda tarixi missiyasını uğurla aparır, mədəni irsimiz bərpa olunur, bayramlar, əlamətdar günlər yüksək səviyyədə qeyd edilir. Məhz Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpası da ermənilərin hər vəchlə özününküləşdirməyə çalışdığı milli musiqimizin qorunub yaşadılmasına xidmət nümunəsi olmaqla işğaldan azad edilən torpaqlarda tarixi-mədəni irsimizə, mənəvi dəyərlərimizə qayıdışa mühüm töhfə kimi vurğu gərəkdirir...

Ümumi fikir olaraq onu demək olar ki, Dövlət Suverenliyi, Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günlərinin qeyd olunduğu tarixi gündə Prezidentin Qarabağ səfəri həm təhsil, iqtisadi, mədəni, turizm səmərəsi, həm də, eyni zamanda ictimai-siyasi əhəmiyyəti ilə seçildi, erməniyönümlü bəzi siyasi dairələrə ünvanlanan tutarlı mesajlarla yadda qaldı. Eyni gündə Böyük Qələbəmizin rəmzi sayılan Şuşada Bayraq Meydanının istifadəyə verilməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin əyani göstəricisi olan Xankəndidə Qarabağ Universitetinin açılması da bu baxımdan təsadüfi deyildi. Səfərin əsas mesajı isə ölkə Prezidenti tərəfindən Qarabağ Universitetinin müəllim və tələbələri ilə görüş zamanı xalqımızın canında, qanında cövlan edən vətənpərvərliyin, milli ruhun, mənəvi hazırlığın hər şeydən üstün olduğu təlqin edilərək bu vacib amillərin qorunub yaşadılmasının vacibliyi aşılanmaqla ötürüldü. ***“Sinəsini qabağa verən, ölümə gedən gənclər bir amalla yaşayırdılar ki, milli ləyaqətimizi bərpa edək və bunu etdik. Ona görə mənəvi-psixoloji üstünlük bir daha bizim ümumi üstünlüyümüzü göstərir. Müharibədən keçmiş ölkə kimi və Ali Baş Komandan kimi müharibənin nəticələrini şərtləndirən amillərə nəzər salaraq, təhlil edərək tam əminliklə deyə bilərəm ki, birinci yerdə, birinci növbədə milli ruh məsələləridir, mənəvi hazırlıqdır. Təbii ki, peşəkarlıq, qəhrəmanlıq, texniki təchizat – bütün bunlar da vacib amillərdir. Ancaq mənəvi üstünlük olmasa, milli düşüncə olmasa, heç bir ən güclü ordu heç vaxt heç bir qələbə qazana bilməz”*** sitatın sonu!

**Nail ƏSGƏROV**

# Qarabağ Universitetində ilk dərs

Hər yeni tədris ili təhsil həyatına başlayan gənclərin və onların valideynlərinin həyəcanı ilə yadda qalır, insanlarda daha geniş hədəflər və arzular yaranır. Təzəcə başlamış bu tədris ili isə xalqımızın həyatında daha da yaddaqalan hadisələrlə zəngin və ölkəmizdəki ali məktəblərə rekord sayda tələbənin qəbulu və Qarabağ Universitetinin fəaliyyətə başlaması ilə əlamətdar oldu. 20 sentyabr – Dövlət Suverenliyi Günü dövlət başçımız Prezident cənab İlham Əliyevin Qarabağ Universitetinin açılışı mərasimində çıxışı isə təkcə yeni yaradılmış bu ali təhsil ocağının deyil, bütün ölkəmizdəki universitetlərdə fəaliyyət göstərən müəllim və tələbələr üçün bir yol xəritəsi, fəaliyyət planı oldu. Dövlət başçımız Azərbaycan tarixini, xüsusən son 200 illik tarixi bilməyənlər, II Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranmış reallıqları görmək istəməyənlər və Azərbaycanın artan nüfuzundan və gücündən qorxuya düşüb sülhə gəlməyənlər üçün növbəti bir dərs keçdi. Bu dərsdən "əla" qiymət alanlar, şübhəsiz, qəbul imtahanlarında yüksək nəticə göstərib Qarabağ Universitetini seçən gənclər olub, dövlət başçımıza gələcəkdə Vətənə layiq kadrlar kimi formalaşmağa, müstəqil, güclü Azərbaycanın qurucuları olmağa söz verdilər. Bu dərsin yekunları həm də ona diqqətlə qulaq asan daha geniş auditoriyanın bundan sonrakı daha səmərəli fəaliyyət planı kimi də iş masası üzərinə qoyuldu. Artıq bundan sonra ixtisasından və peşəsindən asılı olmayaraq, hər bir gəncin dövlət başçımızın müəyyən etdiyi konturlar üzrə formalaşması, milli dəyərlərinə bağlı, güclü Azərbaycan üçün yetişdirilməsi əsas prioritetlər olacaq, tarixboyu qarşılaşdığımız ədalətsizliklər və işğalları heç zaman unutmadan dövlətçiliyimizi qoruyan layiqli vətəndaşlar yetişdiriləcək.

Azərbaycan qalib ölkədir və hər birimizin başını uca edən böyük Qələbəmizə sevinən dost və qardaş ölkələrlə yanaşı, təəssüf ki, bunu həzm edə bilməyənlərin də sayı az deyil. Dünyada geostrateji vəziyyətin, siyasi və hərbi konyunkturanın dəyişməsi fonunda ölkəmizin və xalqımızın mənafeləri naminə çalışa biləcək savadlı və vətənpərvər kadrların yetişdirilməsi, bu mənada, ölkəmizdə ali təhsil qarşısında ən böyük vəzifələrdəndir. Dövlət başçımızın da vurğuladığı kimi, gələcəkdə öz gücünə güvənmək, güclü olmaq, güclü dövlət qurmaq, heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək üçün heç kimin vədlərinə inanmayan və heç bir təsir altına düşməyən gənclik yetişdirilməsi əsas vəzifələrdəndir. İdeoloji təhlükələrin artdığı dünyada, xüsusən də Avropanın bəzi ölkələrində insanların mənəvi boşluğa yuvarlanıb, çürüməkdə olan bir cəmiyyətdə yaşadığı dövrdə ölkəmizdə möhkəm qorunan ailə dəyərlərimiz və hər şeydən üstün tutulan milli dövlətçiliyimiz naminə həmrəy olmağa həmişə hazır olan vətəndaş yetişdirmək ziyalılarımızı daim olaraq düşündürməlidir.

Tariximizi öyrənmək, onu düzgün öyrətmək bu gün hər bir müəllimin peşə borcudur. Təsadüfi deyildir ki, bütün ixtisaslar üzrə Azərbaycan tarixinin birinci kursdan tədris olunması ilə başlayan ali təhsildə tələbələrimiz xalqımızın qəhrəmanlıq tarixini yaxşı mənimsəməklə gələcəkdə onun canlı şahidi olmağın da qürurunu yaşayacaqlar. Xüsusən son 200 illik tarixdə Azərbaycanın qarşılaşdığı böyük ədalətsizliklər, torpaqlarımızın əsassız iddialar nəticəsində itirilməsinə səbəb olan bütün işğallar və siyasi oyunlar bütün gerçəklikləri ilə gənclərə öyrədilməlidir. Beləcə, gənclərimiz Azərbaycan həqiqətlərinə qarşı münasibətdə dostlarımızı və dost olmayanları yaxından tanımaqla beynəlxalq aləmdəki prosesləri də öyrənə biləcək və bununla da gələcək fəaliyyətlərində dostlarımızın sayının daha da artması üçün düzgün yol seçəcəklər.





**Prezident İlham ƏLİYEV:**

*"Bu gün Qarabağda, azad Qarabağda olmaq, sizi görmək, yataqxanada, o balkonda tələbələrin gülər üzlərini görmək doğrudan da böyük xoşbəxtlikdir. Bəlkə də bundan böyük xoşbəxtlik ola bilməz. Müəllimlərə, tələbələrə uğurlar arzulayıram. Yaxşı işləyin, yaxşı oxuyun ki, hər zaman Azərbaycan zəfər çalsın, hər zaman - əgər lazım olarsa, həm döyüş meydanında, həm iqtisadi sahədə, həm siyasi müstəvidə, hər bir yerdə Azərbaycan həmişə zirvələrdə olsun!"*

XXI əsr texnologiyanın sürətli inkişaf dövrüdür. Artıq Marsdan çəkilmiş yüksəkkeyfiyyətli videoların Yerə asanlıqla qəbul edildiyi, Aya turist səfərlərinin planlaşdırıldığı bir dövrdə alitəhsilli kadrlar qarşısında da yeni tələblər yaranır. Süni intellektin əmək bazarını sürətlə sıxışdırdığı, bəsit İKT biliklərinə evdar xanımların da sahib olduğu bir dönəmdə yalnız innovativ düşüncəli və optimal qərarvermə qabiliyyətinə malik, hər cür iqtisadi situasiyadan baş çıxaran, uğurlu işgüzar karyera qura bilən gəncliyin yetişdirilməsi gələcəkdə onların rəqabətqabiliyyətli ola bilməsinə zəmanət verə bilər. Bunun üçün ali məktəblərdə qurulan tədris üsullarının günün tələbləri səviyyəsində qurulması və buna nail olunması üçün də akademik heyətin daim öz üzərində çalışması qarşıya qoyulmuş vəzifələrdəndir. Startap ideyaları ilə zəngin Azərbaycan gənclərinin yaradıcılıq və innovativ enerjisini düzgün yönə istiqamətləndirmək, cəmiyyətin gələcək sosial və iqtisadi problemlərini həll etməkdə onlara dəstək vermək bu gün ali təhsildə prioritet yönümlü işlərdəndir.

Ətraf mühit və onun problemləri bu gün rasionalist davranışa sahib olan sağlamdüşüncəli hər bir insanı narahat edir. Planetimizin gələcəyini təhlükə altına alan, ekoloji problemləri daha da gərginləşdirən tullantılı sənaye, plansız nəqliyyat və ekstensiv kənd təsərrüfatı ərazisindən və iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, bütün dövlətləri narahat edən məsələlərdəndir. Qarabağ otuzillik erməni işğalı dövründə ekosiddən də ciddi əziyyət çəkmiş və bunun acı nəticələrini hələ də yaşayan Azərbaycanın ekoloji məsələlərə yanaşma tərzi və yaşıl dünya quruculuğu yolunda qətiyyətli addımları bu gün təkcə siyasətçilərin və ya ekoloqların deyil, bütün ziyalı təbəqəsinin çıxışlarında ana başlıqlardan biri olmalıdır. Odur ki, bu il COP29 kimi mühüm beynəlxalq tədbirə ev sahibliyi edən Azərbaycanın bu sahədəki həssasiyyəti, dövlət başçımızın təbiəti qorumağa, ekoloji mədəniyyətin yüksəldilməsinə ayırdığı diqqət ali məktəb auditoriyalarında əsas tezislər kimi səslənmədir. Azərbaycanın qlobal iqlim dəyişikliyinə görə qarşılaşdığı problemlər, bu problemə ən çox səbəb olan iri sənayeləşmiş ölkələrlə müqayisədə dövlətimizin hədəfləri akademik heyətin elmi tədqiqatlarına cəlb olunmalıdır. Çünki bu gün dayanıqlı inkişaf prinsiplərinə, əsasən, dövlətlərin və onların hökumətlərinin dünya birliyi qarşısındakı hesabatlarında iqlim dəyişikliyi və yaşıl transformasiya məsələləri strateji dövr üçün ən kritik bəndlərdən biri hesab olunur.

Azərbaycan Şərqlə Qərbin qovşağında parlayan ulduz, özünün yüksək qonaqpərvərlik və tolerantlıq ənənələri ilə həmişə seçilən turizm ölkəsidir. Xalqımıza məxsus qədim mədəniyyət nümunələrinin, unikal təbiət guşələrimizin təbliğ olunması və tanıdılması işində ixtisasından asılı olmayaraq, hər bir ziyalı ölkəsini ürəkdən sevən bir bələdçi kimi danışmağı bacarmalı, bunu bir neçə dildə edə bilməlidir. Sirr deyil ki, bu gün Azərbaycanın müasir inkişafını həzm edə bilməyənlər yeri gəldi-gəlmədi ölkəmizdəki iqtisadi-mədəni mühitə kölgə salmaq və xüsusən də tarixi-mədəni turizm ehtiyatlarımızı öz adlarına çıxmaq üçün hər cür vasitələrə əl atır, saxta təbliğatlar aparırlar. Odur ki, tarixən bu ədalətsizlikləri görmüş hər bir azərbaycanlı ziyalı, hər bir ali məktəb müəllimi bu məsələdə də öz potensialını ortaya qoymalı, əsl vətəndaş mövqeyi göstərməlidir.

Qarabağın düşmən işğalından azad olunması ölkəmizdə yeni bir dövrün başlanğıcı oldusa, Qarabağ Universitetinin açılması da Azərbaycanın təhsil sektorunda yeni bir dövrə start verdi. Artıq ölkəmizdə fəaliyyət göstərən hər bir ali təhsil müəssisəsi qarşısında ordusu və iqtisadiyyatı ilə daha güclü, sosial həyatı ilə daha monolit və mədəniyyəti ilə daha zəngin yeni bir Azərbaycanın gələcək qurucularını formalaşdırmaq vəzifəsi qoyuldu. Bu vəzifə isə Qarabağ Universitetində keçirilmiş ilk akademik dərsin yekunu olaraq tarixə keçdi.

Əli CABBAROV





# “ADEX-2024” Azərbaycanın hərbi quruculuq siyasətinin uğur göstəricisidir

Ali Baş Komandanın sarsılmaz iradəsi, uğurlu diplomatiyası, müzəffər Ordumuzun qüdrəti sayəsində 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbədən sonra regionda geosiyasi mənzərə tamamilə dəyişib, yeni xarici təhdidlər meydana çıxıb. Məhz bütün bunları nəzərə alan Prezident cənab İlham Əliyev ölkəmizin apardığı siyasətin iki əsas xəttini müəyyənləşdirib. Bunlardan biri azad olunan torpaqların, Qarabağın, Şərqi Zəngəzurun bərpasıdırsa, ikinci mühüm istiqamət isə hərbi qüdrətin artırılmasıdır. Ötən 4 ilin mənzərəsi, xüsusilə də ərazi bütövlüyümüzün, suverenliyimizin tam təmin olunması ilə nəticələnən uğurlu antiterror əməliyyatı da belə deməyə əsas verir ki, Azərbaycan hərbi quruculuq siyasəti yolunda uğurla addımlayır, əməkdaşlıq əlaqələrini lazımınca gücləndirməyi bacarır. Bu xüsusda sentyabrın 24-də işə başlayan regionda müdafiə sənayesinə həsr edilmiş ən nəhəng tədbir olan “ADEX-2024” 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə və “Securex Caspian” 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları sərgiləri Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra yeni mərhələyə qədəm qoyan hərbi quruculuq siyasətinin uğur göstəricisidir.

Ölkə Prezidentinin də tanış olduğu, iki ildən bir keçirilən “ADEX” sərgisi bu il 5 illik yubileyini qeyd edir və ildən-ilə iştirakçı siyahısını, əhatə dairəsini xeyli genişləndirir. Qabaqcıl texnologiyaların təqdimatı, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və müdafiə sənayesinin inkişafı üçün səmərəli platforma rolunu oynayan sərgi 10 illik uğurlu fəaliyyəti ərzində dünyanın 50-dən artıq ölkəsini təmsil edən çoxsaylı şirkətləri və 200-ə yaxın rəsmi nümayəndə heyətini bir araya gətirib. Bu illər ərzində sərgini 30 mindən çox qonaq ziyarət edib. Beşinci dəfə təşkil olunan sərgini ölkə başçısının əsas siyasi prioritetlər kimi irəli sürdüyü Azərbaycanda və regionda müdafiə sənayesi, təhlükəsizlik sahəsinə mühüm töhfə kimi qiymətləndirmək olar. Bakıdakı sərgini digərlərindən fərqləndirən cəhətlərdən biri yubiley ilinə təsadüf etməklə bərabər həm də daha çox – dünyanın 40-a yaxın ölkəsindən 218-dən artıq şirkətin iştirak etməsidir. Belə ki, Amerika Birləşmiş Ştatları, İsrail, Türkiyə, Rusiya, İran, Bolqarıstan, Çin, İtaliya kimi güclü ölkələrin müdafiə sektorlarının aparıcı şirkətlərinin yer aldığı sərgiyə Macarıstan, Rumıniya və Sinqapurdan olan şirkətlər bu il ilk dəfə olaraq qatılıb.



Sərgidə “Azərsilah”a məxsus pavilyonda nümayiş etdirilən PUA, müxtəlif növ kəşfiyyat və kamikadze dronları, 30 millimetrlik avtomatik top, zirehli gödəkcələr, aviabombalar və təlim simulyatorları hərbi işgüzar dairələrin nümayəndələrinə, ayrı-ayrı rəsmilərə, qonaqlara ölkəmizdə müdafiə sənayesinin gücləndirilməsi istiqamətində atılan qətiyyətli addımlardan xəbər verdi. Beynəlxalq sərgi, eyni zamanda Azərbaycanın bir sıra region və dünya ölkələri ilə apardığı uğurlu hərbi əməkdaşlıq əlaqələrinin göstəricisi kimi diqqəti çəkdi. Bu xüsusda qardaş Türkiyə ilə yanaşı, Pakistanı da qeyd etmək yerinə düşər. Bəli, ölkəmizin haqlı mövqeyini daim dəstəkləyən bu İslam Respublikasının Azərbaycana məxsusi münasibəti xalqımızın hər bir nümayəndəsi tərəfindən tarixi mədəni əlaqələrin müasir müstəvidə inkişafı baxımından yüksək qiymətləndirilir. Bu mənada, Prezident cənab İlham Əliyevin cari il iyulun 11-də bu ölkəyə dövlət səfəri zamanı dövlətimizin başçısının təyyarəsini Pakistanın hava məkanında ölkənin Hərbi Hava Qüvvələrinin qırıcı təyyarələrinin qarşılaması və ənənədək müşayiət etməsi də qalib Liderə, qalib Azərbaycana göstərilən böyük hörmət və ehtiramın göstəricisidir. Səfər müddətində keçirilən görüşlər, imzalanan sənədlər müxtəlif sahələr üzrə yeni perspektivlər açmaqla dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinə güclü təkan verib. Məhz “ADEX-2024” sərgisi müddətində Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının Prezidentinə Pakistan Aviasiya Kompleksi və Chengdu Çin Aviasiya Korporasiyasının birgə layihəsi olaraq hazırlanmış müasir, yüngülçəkili, istənilən hava şəraitinə uyğun, gündüz və gecə rejimli çoxməqsədli JF-17C (Block-III) təyyarələrinin təqdim olunması da ölkəmizin apardığı uğurlu diplomatiyaya etimadın əyani ifadəsidir. Ordumuzun arsenalına daxil edilən bu yeni təyyarə barədə onu diqqətə çəkmək olar ki, gövdəsi Çin, elektron sistemləri Qərb, mühərrikləri isə Rusiya istehsalıdır. Bu baxımdan, onu çoxtərəfli döyüş təyyarəsi adlandırmaq olar. Maksimum sürəti yanacaqdan və digər faktorlardan asılı olaraq 2 000 kilometrə qədər artan JF-17C (Block-III) 5-ci nəsil qırıcılarda olduğu kimi, havada müxtəlif situasiyalarda manevr imkanlarını artıran və eyni anda birdən çox hədəfi izləmək imkanı verən AESA radarları ilə təchiz olunub. Qiymət baxımından “F-16”lardan yarıbayarı ucuz olan, daha üstün göstəricilərə malik bu təyyarəni əldə etməklə Azərbaycan, Pakistan istisna olmaqla bu qırıcıları inventara daxil edən üçüncü ölkə olacaq. Bu addım hazırkı mürəkkəb vəziyyətdə ölkəmizin hava sərhədlərinin toxunulmazlığı və təhlükəsizliyi baxımından mühüm üstünlüyün qazanılmasına imkan verəcək...



Ümumilikdə, onu deyə bilərik ki, Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilən “ADEX-2024” sərgisi ölkəmizin müdafiə qüdrətini, beynəlxalq hərbi-siyasi arenadakı qabaqcıl mövqeyini nümayiş etdirməklə regionda çaxnaşma yaradan bəzi qüvvələrə də mühüm siyasi mesaj rolunu oynadı. Ölkə Prezidentinin yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında dediyi kimi: ***“Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir. Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq. İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq”.***

**Nail ƏSGƏROV**

# Naxçıvanda Vətən müharibəsi şəhidləri ehtiramla yad edilib



Sentyabrın 27-də – Anım Günündə muxtar respublikada da ərazi bütövlüyümüz uğrunda canlarından keçmiş şəhidlərimiz böyük ehtiramla yad olunub.

Anım Günü ilə əlaqədar muxtar respublikada nazirlik, komitə, idarə, müəssisə və təşkilat, eləcə də ictimaiyyət nümayəndələri tərəfindən ağacəkmə aksiyaları keçirilib, şəhid məzarları ziyarət olunub, ərazi bütövlüyümüz uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi ehtiramla yad olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli də Naxçıvan şəhər qəbiristanlığında Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət edib, məzarların üzərinə gül dəstəsi qoyub, “Qurani-Kərim”dən ayələr oxunaraq şəhidlərin xatirəsinə ehtiram ifadə edilib.



# Naxçıvan Muxtar Respublikasında Anım Günü ilə əlaqədar şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub



“Şərq qapısı” xəbər verir ki, 27 sentyabr – Anım Günündə ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikada da saat $12^{00}$-da canlarını Azərbaycanın ərazi bütövlüyü uğrunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, nəqliyyat vasitələrinin və piyadaların hərəkəti dayandırılıb.

# Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası keçirilib





Sentyabrın 26-da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət edib, abidə önünə tər güllər düzüblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fəaliyyətə başladığını bildirib, Ali Məclisin Daxili Nizamnaməsinə əsasən Ali Məclisin növbəti çağırışının ilk iclasını Ali Məclisin ən qocaman deputatının aparmalı olduğunu diqqətə çatdırıb.

Ali Məclisin növbəti çağırışının ilk iclasını Ali Məclisin ən qocaman deputatı olan Ramiz Məmmədov aparıb.

Ramiz Məmmədov Ali Məclisə üzv seçildiklərinə görə deputatları təbrik edib və yeddinci çağırış Ali Məclisə seçilmiş deputatların siyahısını oxuyub, yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclasını açıq elan edib.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

İclasda Ali Məclisin Hesablayıcı Komissiyasının yaradılması barədə məsələyə baxılıb.

Ramiz Məmmədov Hesablayıcı Komissiyanın tərkibini oxuyub, səsə qoyularaq qəbul edilib.

Bundan sonra Ali Məclisin Hesablayıcı Komissiyasının iclası keçirilib, üzvləri sırasından komissiyanın sədri və katibi seçilib. Beləliklə, deputatlardan Rafiq Novruzov komissiyanın sədri, Canməmməd Canməmmədov komissiyanın katibi, Gülxarə Əhmədova, Xəzəngül Orucova və Həbibə Allahverdiyeva komissiyanın üzvləri seçiliblər.

Gündəlikdə duran ikinci məsələ – Ali Məclis sədrinin seçilməsi məsələsinə baxılıb, Ali Məclisin sədri vəzifəsinə təklif olunan namizəd dəstəklənmədiyi üçün Ali Məclisin sədr müavinlərinin seçilməsi məsələsinin müzakirəsinə başlanılıb.



İclasa sədrlik edən deputat Ramiz Məmmədov bildirib ki, Ali Məclisin Daxili Nizamnaməsinə əsasən Ali Məclis sədrinin müavinləri Ali Məclisin deputatları sırasından açıq səsvermə yolu ilə seçilir. Nizamnaməyə uyğun olaraq Ali Məclis sədrinin müavini vəzifəsinə namizədliyi, ilk növbədə, Ali Məclisin sədri, sonra isə Ali Məclis deputatları irəli sürə bilərlər.

Ali Məclisin sədri seçilmədiyindən təklif üçün söz deputatlara verilib.

Deputat Əjdər Əliyev Ali Məclis sədrinin birinci müavini vəzifəsinə 41 saylı Ordubad şəhər seçki dairəsindən deputat seçilmiş Məmmədov Bəxtiyar İbrahim oğlunun namizədliyini irəli sürüb. Deputatlardan Azad Novruzov, Təhminə Babayeva və Mübariz Bayramov təklif olunan namizədin fəaliyyətini yüksək qiymətləndirib, təklifi dəstəkləyiblər.

Təklif səsə qoyularaq qəbul edilib, Məmmədov Bəxtiyar İbrahim oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini seçilib.

İclasda çıxış edərək göstərilən etimada görə minnətdarlıq edən Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov deyib ki, Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xəttinin ölkəmizdə uğurla davam etdirilməsi sosial-iqtisadi islahatların əhatə dairəsini genişləndirib, müstəqilliyimiz və dövlətçiliyimiz, xalqımızın milli birliyi və mövcud ictimai-siyasi sabitlik daha da möhkəmlənib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz regionda və dünyada söz sahibi olan dövlətə çevrilib. Demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolundakı fəaliyyət, hakimiyyətin bütün qollarında tətbiq edilən yeniliklər, idarəetmənin təkmilləşdirilməsi, ictimai həyatın bütün sahələrində qanunun aliliyinə riayət olunması və qanunvericilik bazasının zənginləşdirilməsi Azərbaycanda təkmil siyasi sistem formalaşdırıb.

Bəxtiyar Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qanunvericilik hakimiyyətinin gücləndirilməsi ilə bağlı müəyyənləşdirdiyi vəzifələrin VII çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin əsas fəaliyyət istiqaməti olacağına, Ali Məclisin muxtar respublikanın inkişafı istiqamətində səlahiyyətləri daxilində səmərəli fəaliyyət göstərəcəyinə əminliyini ifadə edib.

İclası davam etdirən Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov növbəti məsələnin Ali Məclis sədrinin müavininin seçilməsi olduğunu bildirib.



Deputat Ülkər Bayramova Ali Məclis sədrinin müavini vəzifəsinə 42 saylı Aşağı Əndəmic seçki dairəsindən deputat seçilmiş Abdullayev Arzu Kamal oğlunun namizədliyini irəli sürüb. Deputatlardan Bəhruz Məmmədov, Əziz Qasımov və Gülxarə Tarverdiyeva təklif edilən namizədin fəaliyyətini yüksək qiymətləndirib, təklifi dəstəkləyiblər.

Səsvermə nəticəsində Abdullayev Arzu Kamal oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini seçilib.

Bununla da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## B.İ.Məmmədovun Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 7-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Bəxtiyar İbrahim oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 24 sentyabr 2024-cü il*

## R.G.Məmmədovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin köməkçisi vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini, 30-cu maddəsini və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33.1.8-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Ramiz Gülməmməd oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin köməkçisi vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 24 sentyabr 2024-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Hesablayıcı komissiyasının təşkil edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 45-ci maddəsinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyası aşağıdakı tərkibdə yaradılsın:

1. Allahverdiyeva Həbibə Rəşad qızı
2. Canməmmədov Canməmməd Ramiz oğlu
3. Əhmədova Gülxarə Manaf qızı
4. Novruzov Rafiq Novruz oğlu
5. Orucova Xəzəngül Yunis qızı

**Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci iclasına sədrlik edən Ramiz MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 26 sentyabr 2024-cü il*

## B.İ.Məmmədovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini seçilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Deputat Bəxtiyar İbrahim oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini seçilsin.

**Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci iclasına sədrlik edən Ramiz MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 26 sentyabr 2024-cü il*

## A.K.Abdullayevin Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini seçilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Deputat Arzu Kamal oğlu Abdullayev Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini seçilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 26 sentyabr 2024-cü il*

# Naxçıvanda doğum günü sentyabr ayında olan şəhidlərin xatirəsi anılıb

*Sentyabrın 23-də "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə sentyabr ayında doğum günü olan şəhidlərin anım tədbiri keçirilib.*

Dövlət və hökumət rəsmiləri, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Doğum günü sentyabr ayında olan şəhidlərlə bağlı Naxçıvan Televiziyasının hazırladığı videoçarx nümayiş etdirilib, tələbələr videoçarxda adları çəkilən 40 şəhidin portretləri ilə səhnəyə çıxıblar.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin səmimi salamlarını və ehtiramını çatdırıb.

Baş nazir qeyd edib ki, sentyabr ayı şanlı Vətən müharibəsinin başlandığı və lokal antiterror əməliyyatının aparıldığı dövr kimi Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb.



Bildirilib ki, bu il isə sentyabr ayında Şuşada və Xocalıda təhsil bərpa olundu. Xankəndidə Qarabağ Universiteti fəaliyyətə başladı. Bütün bunları ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa edən qəhrəman hərbçilərimizə, canını və sağlamlığını Vətən uğrunda fəda edən şəhid və qazilərimizə borcluyuq. Dövlət başçımızın apardığı uğurlu siyasət, xalqımızın birliyi və gənclərimizin milli ruhda tərbiyəsi parlaq qələbəni təmin etdi.

Muxtar respublikada şəhidlərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm işlər görüldüyünü diqqətə çatdıran Ceyhun Cəlilov şəhidlərimizin xatirəsini ehtiramla yad edib,



şəhid ailələrinə və qazilərə sağlam həyat arzulayıb.

Şəhid baş leytenant Əli Əliyevin atası Cavad Əliyev və leytenant Həsən Quliyevin anası İradə Quliyeva çıxış edərək son nəfəsini hərb meydanında verərək soydaşlarımızın Vətən həsrətinə son qoyan qəhrəman övladlarının döyüş yolundan fəxarətlə danışıb, göstərilən diqqətə və dəstəyə görə minnətdarlıq ediblər.

Əlahiddə Ümumqoşun Ordunun zabiti mayor Behruz Ziyadov Müzəffər Ali Baş Komandanımızın əzmi, qətiyyəti və yüksək sərkərdəlik bacarığı ilə aparılan 44 günlük haqq savaşında əsgər və zabitlərimizin peşəkarlığından, igidliyindən və şücaətindən söz açıb, şanlı Azərbaycan Ordusunda xidmət etməyindən sonsuz fəxarət duyduğunu bildirib.

Naxçıvan şəhər 2 nömrəli uşaq musiqi və incəsənət məktəbinin şagirdi, şəhid Sadiq Həsənovun qızı Lalə Həsənzadə pianoda "Vətən əmanəti" mahnısını ifa edib.

Sonda "Altai" teatrının aktyorları tərəfindən şəhidlərimizin xatirəsinə həsr olunmuş şeir-kompozisiya təqdim olunub.

# Şəhidin doğum günü qeyd olunub

Şərur Rayon Mədəniyyət Sarayında ötən il antiterror əməliyyatı zamanı şəhidlik zirvəsinə ucalan Elçin İbrahimlinin 27-ci doğum günü ilə bağlı tədbir və onun xatirəsinə həsr olunmuş "Vətən sənə oğul dedi" kitabının təqdimatı keçirilib. Öncə Ulu Öndərin və əziz şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılıb, Dövlət







Himni səsləndirilib.

Antiterror əməliyyatlarından bəhs edən videoçarx nümayiş etdirilib. Tədbirdə çıxış edən Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Səfər Hüseynov bildirib ki,Vətən savaşı və antiterror əməliyyatı Azərbaycan tarixinin şanlı səhifələrindən biridir. Şəhidlərimiz torpaqlarımızı canı bahasına azad edərək Azərbaycan Respublikasının ərazi bütövlüyünü, suverenliyini təmin etdi.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun nümayəndəsi, polkovnik Şəhadət İbrahimov tədbirdə çıxış edərək bildirib ki, şəhidlər təkcə öz anasının yox, bütün Azərbaycanın balasıdır. Azərbaycan zabiti, əsgəri Ali Baş Komandanın rəhbərliyi ilə döyüşə atılıb Azərbaycan qadınının Birinci Qarabağ müharibəsində tapdalanmış namusunu təmizlədi. Ordumuz illərdir, qanayan yaranı sağaltdı.

Tədbirdə çıxış edən "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri Mais Gülməmmədov, "Şərur Şəhid Ailələri" İctimai Birliyinin sədri Rəhim Mədətov, "Naxçıvan Qaziləri" İctimai Birliyinin sədr müavini Əli Əlisoy, şəhid İbrahim Vəlizadənin anası Xurşud ana öz çıxışında igid Vətən oğullarının qəhrəmanlığından bəhs edib, şəhid Elçin İbrahimlinin ailəsinə səbir diləyiblər. Tədbirdə çıxış edən AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini, dosent Elxan Yurdoğlu qeyd edib ki, Azərbaycan xalqı tarixboyu qəhrəman oğulları ilə fəxr edib. İgid oğullar Vətən savaşında və sonrakı hərbi əməliyyatlarda öz



əcdadlarının yolunu davam etdirdilər. Onların hər biri bu xalqın qəhrəmanıdır. Onlar haqqında yazılan hər bir kitab qəhrəmanlıq dastanının boyudur. Bu baxımdan "Şərq qapısı" qəzetinin əməkdaşı Ramiyə Əkbərovanın şəhid Elçin İbrahimli haqqında yazdığı "Vətən sənə oğul dedi" kitabını da bir qəhrəmanın həyat dastanı hesab etmək olar. Kitabda şəhidin doğmalarının igid Vətən oğlu haqqında xatirələri və fotoları yer alıb. Onun qəhrəmanlığından danışılıb.

Sonra tədbir bədii hissə ilə davam edib. Məktəblilərin, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının ifasında bədii qiraət, vətənpərvərlik ruhunda mahnılar ifa olunub.

Sonda şəhid babası Fəxrəddin İbrahimov tədbir iştirakçılarına təşəkkür edib.

# Naxçıvan polisinə yeni avtomobillər verilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi-texniki bazasının gücləndirilməsi məqsədilə "Kia Sportage" markalı avtomobillər ictimai təhlükəsizliyin daha da etibarlı qorunması üçün şəxsi heyətin xidməti istifadəsinə verilib.

Bu barədə "Şərq qapısı" Naxçıvan Muxtar Respublikası DİN-in mətbuat xidmətinə istinadən xəbər verir.

Həmin avtomobillər artıq müvafiq qurumların istifadəsinə verilib.

# Ordubad rayon Kələntərdizə, Qoşadizə, Aza və Darkənd kəndlərindəki əsas yollar və kənddaxili yollarda yenidənqurma işləri aparılır



2,5 kilometr uzunluğunda olan Kələntərdizə-Qoşadizə avtomobil yolu müasir standartlara uyğun olaraq yenidən inşa olunur. Bu yolun 2480 metr hissəsinə birinci qat asfalt verilib. Həmçinin 2748 metrdən artıq məsafədə beton arx salınıb, körpü salınıb və su keçidləri təmir olunub.

Aza kəndində isə avtomobil yolunun 1880 metrlik hissəsinə birinci asfalt qatı verilib. Eyni uzunluqda beton su kanalı çəkilib, su keçidləri isə yenidən qurașdırılıb.

Aza və Darkənd yolunda da əsaslı təmir işləri görülüb. Belə ki, burada 1 kilometr-dən artıq yolda bərkitmə işləri aparılıb və birinci qat asfalt verilib. 700 metrdən artıq beton kanal çəkilib.





# Möminə xatın türbəsinin restavrasiyası ilə bağlı mütəxəssislər Naxçıvana gəlib

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"na uyğun olaraq Möminə xatın türbəsinin bərpası və ərazinin abadlaşdırılması ilə bağlı layihələndirmə işlərinin aparılması məqsədilə "Atelier Erich Pummer GMBh" şirkəti ilə müqavilə bağlanıb.

Sentyabrın 22-də şirkətin rəhbəri Erik Pumer və işçi qrupu Naxçıvana gəlib, Möminə xatın türbəsinin mövcud vəziyyətinin hərtərəfli tədqiqi və ölçmə işlərinin aparılması üçün ilkin baxış keçirilib.

Qeyd edək ki, şirkət Azərbaycanda bu sahədə 15 ildən artıqdır ki, fəaliyyət göstərir.



# Naxçıvan "Yaşıl dünya naminə həmrəylik ili"nə töhfələrini verir

***2023-cü il dekabrın 9-da Azərbaycan 2024-cü ildə COP-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirilib. Ona görə də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un bu il ölkəmizdə keçirilməsinə ciddi hazırlıq işləri aparılır. Azərbaycan həm də 29-cu sessiyaya sədrlik edəcək. Bu da onunla bağlıdır ki, ölkəmiz beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində zəngin təcrübəyə malikdir. Tədbirin keçiriləcəyi məkan olaraq Bakı Stadionu seçilib. Bu istiqamətdə muxtar respublikada da bir sıra işlər görülüb və görülməkdədir. Həmin işlərlə bağlı ətraflı məlumat almaq üçün Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayevlə həmsöhbət olduq. Ona bir neçə sual ünvanladıq:***

*– Bu tədbirin keçirilməsi hansı məqsədə söykənir?*

– COP dünyada ən önəmli beynəlxalq tədbirlərdən biridir və bütün bəşəriyyəti maraqlandırır. Dünyanı müxtəlif ekoloji problemlərin bürüdüyü bir vaxtda belə möhtəşəm tədbirin keçirilməsi insanlara, canlı təbiətə, flora və faunaya baxış, qlobal çətinliklərin aradan qaldırılmasında dünya dövlətlərinin fəaliyyətinin birləşdirilməsi məqsədi daşıyır. Elə buna görə də Azərbaycanda keçiriləcək Birləşmiş Millətlər Təşkilatı (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında da bir sıra işlər görülür. İstixana effekti yaradan qazlarla atmosferin çirklənməsinin tənzimlənməsi, maliyyə məsələləri, ətraf mühitə dost və yaşıl texnologiyaların təşviqi və tətbiqi, tullantıların idarə olunması və bir sıra digər amillər iqlim dəyişikliklərinə təsir göstərir. Bütün dünya dövlətlərini iqlim dəyişiklikləri ilə mübarizə maraqlandırır. Lakin bir sıra dövlətlər var ki, yaşıl texnologiyaların tətbiqi üçün maliyyə imkanları kifayət etmir. Ona görə də COP tədbirində maliyyə məsələlərinə də geniş yer verilməsi məqsədəuyğun sayılır.

*– 2024-cü ili Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həm də "Yaşıl dünya naminə həmrəylik ili" elan edib. Belə bir ildə COP29-un Azərbaycanda keçirilməsi aidiyyəti qurumlar qarşısında ikiqat məsuliyyət qoyub...*

– "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən görüləcək tədbirlərlə bağlı iş planı hazırlanıb. Bu planda maarifləndirmə, yaşıllaşdırma və bioloji müxtəliflik sahəsində, ətraf mühitin sağlamlaşdırılması, tullantıların idarə edilməsi sahəsində tədbirlərin keçiriləcəyi nəzərdə tutulub. Artıq həmin tədbirlərin böyük hissəsi başa çatıb. Mərhələlər üzrə həmin tədbirlər davam etdirilir. Belə ki, maarifləndirmə istiqamətində Batabat yaylağında "Azərbaycanda ətraf mühitin qorunmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda elmi-praktiki konfrans keçirilib. Ötən dövr ərzində qaçış və velosiped yarışları, meşələrdə, çaylarda təmizlik aksiyaları, tullantıları tingə, ekoçantaya dəyiş tədbirləri, ekodüşərgələrin salınması və yay məktəblərinin təşkili, 22 may – Beynəlxalq Biomüxtəliflik Gününə həsr edilmiş elmi-praktiki konfrans keçirilib, 16 mart 2024-cü il tarixdə bir gündə 100 min ağac əkilib. Bununla yanaşı, yeraltı suların çirklənməsinin qarşısının alınması üçün Naxçıvan şəhərinin inzibati ərazisinin mərkəzi kanalizasiya şəbəkəsinin rəqəmsal xəritəsi hazırlanıb, bu şəbəkəyə qoşulmayan yaşayış və qeyri-yaşayış obyektləri müəyyənləşdirilib və neqativ təsirlərin aradan qaldırılması üçün hüquqi prosedurlara başlanılıb. Naxçıvan Muxtar Respublikasının İqlim xəritəsi tərtib olunub. Zəngəzur Milli Parkının zonalaşdırılması xəritəsi hazırlanaraq Azərbaycan Respublikasının Baş naziri tərəfindən təsdiq edilib. Bundan əlavə, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən bu yaxınlarda Əlincədağa dövlət təbiət abidəsi statusu verilib. Cari ilin 5 iyun tarixində ekokönüllülərin və "yaşıl dünya" könüllülərinin Zəngəzur Milli Parkı ərazisinə ekskursiyaları təşkil edilib. Tədbir iştirakçılarına Milli Parkın fauna və florası, ekoturizmi haqqında məlumatlar verilib. Xüsusi mühafizə olunan təbiət əraziləri ilə bağlı videoçarx nümayiş etdirilib.



*– Yaşıllaşdırma və bioloji müxtəliflik istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsinin də şahidiyik. Bu barədə nə deyə bilərsiniz?*

– İlk olaraq onu qeyd edim ki, "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar Tədbirlər Planına uyğun olaraq ağacəkmə aksiyaları reallaşıb; 431,6 hektar sahədə meşəsalma və meşəbərpa və toxumla əkin tədbirləri görülüb, 170 min müxtəlif meşə və meyvə tingi əkilib. Bu sırada həyata keçirdiyimiz digər tədbirləri də vurğulaya bilərik. Belə ki, Beynəlxalq Bioloji Müxtəliflik Günü ilə bağlı Təhsil Nazirliyi ilə birgə elmi-praktiki konfrans keçirilib, "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunan "Yaşıl məktəb" layihəsi çərçivəsində Naxçıvan şəhəri, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının ümumtəhsil məktəblərinin ərazilərində keçirilmiş ağacəkmə aksiyalarında 4300 meyvə və dekorativ ağac əkilib. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, özəl təşkilatlar, yerli özünüidarəetmə orqanları və fiziki şəxslər bu prosesdə fəallıq göstəriblər. Təşkilatlar və fiziki şəxslər tərəfindən bir gündə 108 min ağac əkilib. Eyni zamanda Naxçıvan-Şahbuz avtomobil yolunun kənarında 1,1 ha sahədə salınmış media bağında ("Əkinçi" bağı) 1000 ağac əkilib. Onu da qeyd edim ki, fauna növlərinin tarixi areallarına reintroduksiyası ilə bağlı proqram hazırlanıb. Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkının zonalaşdırılması xəritəsi hazırlanıb, aidiyyəti qurumlarla razılaşdırılıb.

Sentyabr ayında Türkiyə Respublikasından 150 min ədəd balıq körpələri gətiriləcək Heydər Əliyev və Uzunoba Su anbarlarına buraxılacaqdır.

*– Bəs ətraf mühitin sağlamlaşdırılması tədbirləri barədə nə deyə bilərsiniz?*

– Bu istiqamətdə görülən işlər də az deyil və insanlarımızın sağlamlığının qorunması məqsədi daşıyır. Xüsusi vurğulamaq istərdim ki, ötən müddət ərzində 51 müəssisədə qaztutucu, toztutucu qurğu quraşdırılıb və 14 müəssisə barəsində cərimə tətbiq olunub, 200 müəssisəyə məcburi göstəriş verilib. Ətraf mühitin mühafizəsi ilə əlaqədar 1023 reyd-yoxlama keçirilib, 115 inzibati xəta halı qeydə alınıb. Naxçıvan Muxtar Respublikası Energetika Xidmətinə Külək Elektrik Stansiyasının yaradılması ilə bağlı Culfa rayonu ərazisi tövsiyə olunub və illər üzrə küləyin sürəti haqqında məlumatlar təqdim edilib. Naxçıvan şəhərində 688 hektar və Şərur rayonunda isə 1163 hektar torpaq sahəsində Günəş Elektrik Stansiyasının tikintisinin həyata keçirilməsi üçün nazirlik tərəfindən torpaq sahəsinin ayrılması məqsədilə dövlət ekoloji ekspertiza rəyləri verilib. Su hövzələrində monitorinqlərin aparılması da diqqətdə saxlanılıb. Araz çayından, Arpaçaydan, Şir arxından, Araz və Arpaçay Su anbarlarından, Heydər Əliyev Su Anbarından, Qanlıgöldən, Uzunoba gölündən, Sirab gölündən və Bənəniyar gölündən su nümunələri götürülüb, ilkin laborator analizlər aparılıb.

*– Tədbirlər Planında tullantıların idarə edilməsi ilə bağlı nəzərdə tutulmuş tədbirlərin icra olunması hansı səviyyədədir?*

Öncə bunu qeyd etməliyəm ki, muxtar respublikada formalaşan tullantılar təhlükəli və bərk məişət tullantılarından ibarətdir. İnsan sağlamlığı və ətraf mühitin mühafizəsi baxımından bu tullantıların idarə edilməsi fərqli yanaşmalar tələb edir. Ona görə də Naxçıvanda təhlükəli və bərk məişət tullantılarının idarə edilməsi üçün 2 poliqonun qurulması istiqamətində işlər aparılır.

Hazırda təhlükəli tullantılar poliqonunun podratçı şirkət tərəfindən layihə-smeta sənədlərinin hazırlanması yekunlaşma mərhələsindədir. Burada geomembran qatla ətraf mühitdən təcrid edilməklə tikiləcək 30 min kubmetr həcmində hücrədə təhlükəli tullantıların bir qismi basdırılmaqla, bir qismi isə saatda 2,5 kubmetr yandırma gücünə malik qurğuda (insilerator) yandırılmaqla zərərsizləşdiriləcəkdir.

Bərk məişət tullantılarının idarə edilməsinə gəlincə emal müəssisənin yaradılması üçün konsept təklifləri və tullantıdan enerji alınması məqsədilə TİƏ sənədi hazırlanıb. Bir mərkəzi poliqonun, 4 ötürücü məntəqənin və tullantıların çeşidlənməsi zavodunun layihələndirilməsi üçün texniki tapşırıq yekunlaşdırılıb, qiymət təklifi alınıb. Buna paralel topoqrafiya işləri görülüb, torpaq ayırma üçün aidiyyəti üzrə müraciət edilib.

22 avqust 2024-cü il tarixdə layihə-smeta sənədlərinin hazırlanması üçün tender elanı verilib. Tullantıların idarə edilməsi sahəsində isə Hacıvar və Xəlilli kəndləri ərazilərində mədən tullantılarının və tikintidə formalaşan qruntun yerləşdirilməsi məqsədilə yerlər müəyyənləşdirilib. Tullantıların yerləşdirilməsi və rekultivasiya olunması üçün tələblər qoyulub. Biçənək, Bist və Tillək meşələrində payız mövsümündə formalaşan bitki mənşəli (xəzəl) tullantılardan kompost gübrələrin alınması üçün tədbirlər həyata keçiriləcəkdir. Eyni zamanda avtomobillərin utilizasiyası üçün investor cəlb edilib və infrastruktur formalaşdırılıb.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyev deyirdi: ***"Təbii sərvətlərə qayğı ilə yanaşılması, planetin genofondunun qorunması, ekoloji sağlamlıq və digər qlobal problemlər ayrılıqda hər bir dövləti ciddi düşündürsə də, onları yalnız birgə səylərlə həll etmək mümkündür".***

*– Müsahibəyə görə təşəkkür edirik.*

**Aygün RÜSTƏMOVA**

# Ətraf mühiti və sağlamlığımızı qorumaq naminə eko-qablaşdırmaya üstünlük verək




İstehsal prosesində keyfiyyətcə tam formalaşmış məhsulları istehlakçılara keyfiyyət dəyişikliyi olmadan çatdırmaq istehlakçı tələbini ödəmək baxımından həm istehsal müəssisələrinin, həm də xidmət strukturlarının qarşısında duran əsas məsələlərdəndir. Məhsulların keyfiyyətini qoruyub saxlayan vacib amillərdən biri isə, əlbəttə ki, onun qablaşdırılmasıdır. Qablaşdırma materialının düzgün seçimi isə qablaşdırma prosesinin həyata keçirilməsində əsas şərtlərdən biridir. Məhsulların istehsal prosesində qablaşdırılması zamanı təbii və süni materiallar istifadə edilə bilər. Lakin istehsalçılar məhsulların qablaşdırılmasında süni materiallara daha çox üstünlük verirlər. Çünki düşünürlər ki, qablaşdırma tələbini təbii materiallara ödəmək maddi baxımdan onlara baha başa gəlir. Ona görə də bu gün plastik qablar, polipropilenlər həyatımızın ayrılmaz hissəsinə çevrilib. Əvvəlki illərdə plastik qablar ancaq su satışında istifadə edilirdisə, indi süd və süd məhsullarından tutmuş, gündəlik ərzaq məhsullarına qədər əksər mallar plastik qablarda istehlakçılara təqdim olunur. Ancaq nəzərə alınmalıdır ki, qablaşdırma zamanı istifadə olunan süni materiallar insan orqanizminə ciddi şəkildə zərər vurmaqla yanaşı, həm də ətraf mühitin çirklənməsinə səbəb olur. Alimlərin araşdırmalarına görə, plastikdə olan birləşmələr, xərçəng xəstəliyi də daxil olmaqla sağlamlıq üçün bir çox problemlər yaradır.

Bu gün Naxçıvanda da eko-qablaşdırmanın təşviqi istiqamətində bir çox tədbirlər həyata keçirilir. Elə yaxın günlərdə Naxçıvanda fəaliyyət göstərən yerli sahibkarların ekoloji qablaşdırmaya keçidi və AZS İSO 14001-2021 "Ətraf mühiti idarəetmə sistemləri" standartlarının tətbiqinə təşviq edilməsi məqsədilə aksiya keçirildi.

Elə biz də mövzuya bağlı suallarımıza cavab tapmaq üçün Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə müraciət etdik. "Ekoloji qablaşdırma nədir?" sualını xidmətin texniki tənzimləmə və metroloji nəzarət sektorunun müdiri Rəşad Mirzəyev cavablandırdı: "Eko-qablaşdırma təkrar emal oluna bilən, ətraf mühit, insan sağlamlığına və məhsullara zərəri olmayan qablaşdırma növüdür. Bu qablaşdırmalar təbiətdə bir neçə ay ərzində parçalanır. Eko-qablaşdırma nəinki istifadə etdiyimiz tullantıları azaldır, o həmçinin istehsal zamanı havanın daha az çirklənməsinə səbəb olur. Digər növ qablaşdırma materiallarından fərqli olaraq eko-qablaşdırmalar daha sürətli parçalanır. Parçalanma zamanı atmosferə heç bir zərərli maddələr buraxmır və torpağı çirkləndirmir". "Eko-qablaşdırmaların materiallarının növləri hansılardır və onlar nə üçün istifadə olunur?" sualını müsahibimiz belə cavablandırdı: "Bu növ qablaşdırmaların müxtəlif ölçüləri və formaları olur. Ekoloji cəhətdən ən təmiz qablaşdırma kağız və qofrokarton hesab olunur. Eko-qablaşdırmalara nümunə olaraq bir çox qablaşdırma növlərini göstərmək olar.

Məsələn, kağızdan hazırlanan qablaşdırmalar müxtəlif əşyaların daşınması və saxlanması üçün praktik və sərfəli həll yoludur. Təkrar emal edilə bilən və bioloji parçalana bilən olduğuna görə qablaşdırmalar üçün ideal seçimdir. Un, şəkər, şəkər tozu və qurudulmuş meyvə kimi bir çox qida məhsullarının qablaşdırılmasında kraft karton istifadə olunan möhkəm kağız növüdür. Buna əlavə olaraq çantaların hazırlanması və paketləmədə də geniş istifadə olunur. Bu növ kağız nəmə davamlı olduğuna görə məhsulların və qidaların təhlükəsiz şəkildə daşınmasını asanlaşdırır. Bambuk dünyanın ən sürətlə böyüyən bitkilərindən biridir. Metal, plastik, sərt ağac, kağız və pambıq əvəzləyicisidir. Tikinti, parça və tekstil, mebel sənayesində, diş və saç fırçaları, mətbəx qabları kimi bir çox başqa məhsulların istehsalında geniş istifadə olunur.

Adını sadalamadığımız bir çox eko-qablaşdırmalar mövcuddur ki, belə təbii materiallardan hazırlanmış qablaşdırmalar təkrar emal edilə bilən və gübrəyə çevrilən materiallar olduğundan geniş istifadə olunur".

Rəşad Mirzəyev bildirdi ki, ekoloji təmiz qablaşdırma təkrar emal edilmiş materiallardan da hazırlana bilər. Bu materiallar öncədən istifadə edilmiş plastiklərin yenidən emal edilməsindən alınan məhsullardır. Təkrar emal edilmiş materiallardan istifadə etməklə təbii resurslara qənaət etmiş oluruq. Bununla yanaşı, zibilxanalarda toplanan tullantıların miqdarını azaltmağa və yeni materialların toplanması ehtiyacını minimuma endirməklə çirklənməni azaltmağa da kömək edirik.

Eko-qablaşdırmalardan istifadə etməyin faydalarından bəhs edən Rəşad Mirzəyev dedi ki, bildiyiniz kimi, qablaşdırma məhsullarının istehsalı xammalın çıxarılmasından istehsalına, daşınmasına, istifadəsinə qədər müxtəlif mərhələlərdən keçir. Hər bir mərhələ ətraf mühitə müəyyən miqdarda zərərli olan karbon qazı buraxır. Eko-qablaşdırmaların istehsalı zamanı isə havaya daha az karbon qazı buraxılır. Bioloji parçalana bilir və parçalana bildiyinə görə eko-qablaşdırmalar ətraf mühit üçün ideal seçimdir. Çünki təbiətdə zərərsizdir. Həmçinin eko-qablaşdırma qida israfını minimuma endirir, qidaların rəflərdə daha uzun müddət qalmasına köməklik etməklə yanaşı, həm də qida tullantılarını azaldır.

Bəli, eko qida qablaşdırması ən yaxşı təcrübələrimiz və gigiyenik istehsal texnikalarından istifadə etməklə istehsal olunduğundan ətraf mühitimizi təmiz və sağlam saxlamağa kömək edir. Eko-qablaşdırma təkcə istehlakçıların ekoloji öhdəliklərini yerinə yetirmir, həm də brend imicini və satışını artırır. Elə isə sağlamlığımızı və ətraf mühiti qorumaq naminə eko-qablaşdırmalara üstünlük verək və beləliklə, həm özümüzü, həm də bizə min nemət bəxş edən təbiəti qoruyaq.

**Gülcamal TAHİROVA**




# 100 ilin qəhrəmanları

***"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şahbuz rayonunun Şahbuzkəndindən olan şəhidimiz Emin Sadiqovun anası Gülşad Rüstəmovanın, Culfa rayonunun Ləkətağ kəndindən olan şəhidimiz Babək Əliyevin anası İradə Əliyevanın və Naxçıvan şəhərindən olan şəhidimiz Raqib Hüseynovun anası Rəna Hüseynovanın övladları haqqında xatirələri yer alıb.***

## Emin Rəşadət oğlu Sadiqov

*(21.07.1998-27.10.2020)*

## Vətən yolunda ölümü ilə əbədilik qazandı





Hərbçi olmaq Eminin uşaqlıq arzusu idi. Mənə deyirdi ki, səni hərbçi anası edəcəyəm. Hərbi təhsilini Heydər Əliyev adına Ali Hərbi Akademiyada almışdı. Qazaxda bir müddət işləyəndən sonra məzuniyyətə gəlmişdi. Mən çox kövrək insanam. Göz yaşlarımı görüb dedi ki, ana, bilirsən sən məni necə əzirsən? Sən hərbçi anasısan. Eminin bu sözlərindən sonra özümdə güc toplayırdım.

Müharibə başlanmazdan əvvəl zəng etdi ki, ana, müharibə başlasa və desələr ki, çoxlu yaralı var, tibb bacısı lazımdır. Nə edərsən? Düşünmədən dedim ki, birinci mən gedərəm. Elə gözəl güldü ki... Dedi, mən sənin oğlunam! Sanki məni sınayırdı. Bu sözlərlə balama daha da cəsarət vermişdim.



İki dəfə könüllü yazılmışdı. Evin tək övladı olduğu üçün göndərmirdilər. Deyirdilər ki, sən burada olmalısan. Üçüncü dəfə yenə könüllü ərizə yazmışdı. Komandirinə demişdi ki, məni göndərməyə bilməzsiniz. Göndərməsəniz, başqa yerə müraciət edəcəyəm.

İndi döyüş yoldaşları məktub yazırlar. Yazırlar ki, düşünməyin ki, Emin şəhid olub deyə sizə xoş sözlər söyləyirik. Emin başqa cür komandir idi.

Döyüş yoldaşı deyir ki, şəhid olduğu gün naryaddan çıxmışdı. Ayağında yara var idi. Ağrıkəsici vurub gedib. Deyib ki, əsgərlərimin başında olmalıyam, onları tək qoya bilmərəm. Hətta deyiblər ki, gözləyək, qabaqda düşmən çoxdur. Deyib, gedəcəyəm. Beş nəfər irəliləyib, ordaca da vurulublar. Ayın 26-sı şəhid olub, 27-si Bakıya gətirilib.

Mənə yaralı olduğunu demişdilər. Yuxuda gördüm ki, ev telefonu zəng çaldı. Dəstəyi götürüb Eminin səsini eşitdim. Dedi, telefonları niyə bağlamısan? Dedim, dedilər ki, Emin ölübdür. Dedi ki, yox, ana, ölməmişəm, şəhid olmuşam. Sonra dedi, ana, mən beşinci gün gələcəm. Beləcə, yuxuda şəhid xəbərini özü mənə verdi. Qayıtdım ki, de görüm güllə harandan dəyib? Dedi ki, ürəyimdən.

Nəşini əmisi görmüşdü. Özünün də yuxuda dediyi kimi ürəyindən yaralanmışdı.

## Babək Əsgər oğlu Əliyev

*(01.10.1997-05.08.2022)*

## Müqəddəs amal uğrunda şəhadətə yüksələn oğul





Sakit təbiətli uşaq idi. Şıltaqlıqla heç işi olmazdı. Dərslər qurtaran kimi evə gələr, gününü evdə keçirərdi. Hərbi liseydə, Bakıda akademiyada oxuyanda da eləcə. Soruşanda deyərdi ki, evdə valideynlərimlə birgə vaxt keçirməyi xoşlayıram. Bacı-qardaşa, ailəyə çox bağlı, həm də deyib-gülən idi. Sözümüzü heç vaxt yerə salmazdı. Çölə çıxanda da səliqəli geyinərdi. Ev-eşikdə geyindiklərini belə səliqəli saxlayırdı. Deyərdi ki, kişinin geyimi səliqəli olmalıdır.




Anadan olanda qayınanam gedib baxdırmışdı. Demişdilər ki, gedin bu uşağın adını Babək qoyun. Amma heyif ki, ömrü gödəkdir. Adsanla gedəcək...

Onun hər bir hərəkətini xatırlayıram. Oturuşu, duruşu, gülüşü, yerişi – hər biri bir xatirədir. Gül həvəskarı idi. Harada gül görsə, ondan gətirib həyətə əkərdi. Özü də qulluq edərdi.

Hərbidə olan heç bir hadisəni mənim yanımda danışmazdı. 44 günlük müharibədə bir dəfə olsun, mənə heç nəyi bildirmirdi. Müharibədə olduğunu bilirdim. Amma demirdi mənə. Soruşanda cavab verirdi ki, ana, mən təlimdəyəm.

Axırıncı danışığımız şəhidliyindən bir neçə saat əvvəl olmuşdu. Zəng etdik. Cavab vermədi. Sonra özü zəng etdi. Soruşdum ki, haradasan? Cavab verdi ki, ana, dağdayıq. 4 saat yol qalxmışıq. Soruşdum ki, maşın yolu yoxdu orada? Dedi, yox, traktorla indi yol açırıq. Bir də dedi ki, ana, nigaran qalma, salamatlıqdır. Atası ilə də danışdı həmin gün. Elə o yol açan zaman da minaya düşüb. "Qisas əməliyyatı" zamanı o dağı almışdılar Kəlbəcərdə. Bayrağı da bunlar qaldırmışdılar. Dizini yerə vurub həmin bayrağı bunlar öpmüşdü.

Nəvəmin ad günü idi. Avqustun 5-i idi. Özümüzçün toplaşmışdıq evdə. Bacımgil də bizdə idi. Onlar bizdən gedəndə, sən demə, hər kəs bilirmiş Babəkin şəhid olduğunu.



## Raqib Adil oğlu Hüseynov

*(03.07.1993-29.09.2020)*

## Vətənin azadlığı üçün ömrünü fəda etdi





Balaca vaxtlarından hiss etmişdim ki, Raqib hərbiyə meyillidir. Beş yaşı olanda bazara aparmışdım. Piştaxtaların birinin üstündə hərbi forma gördü, dedi ki, onu alacaqsan mənə. Üstümdə də pul az idi. Saxlamışdım ki, ərzaq alım evə. Əl çəkmədi ki, alacaqsan. Evə çatanda aldığım başqa geyimləri deyil, məhz həmin formanı geyindi.

8-ci sinifdən sonra dedi gedirəm hərbiyə. Dərslərini də yaxşı oxuyurdu. Nə qədər etdik, fikrindən daşındıra bilmədik. 3 il hərbi məktəbdə oxudu. Övladlarımızın hər ikisini hərbçi böyütmüşük. Onların işinin ağır olduğunu bilirdik. Bakıya gedəndə də atası təkid etdi ki, qayıt, getmə. Dedi ki, ata, mən hərbçi olacağam. Həmişə deyirdi ki, mən Xocalının qisasını alacağam. Ayın 25-i görüntülü zəng etdi. Dayı olmuşdu. Leylanı görmək istəyirdi. Həmin gün çox danışdıq. Dedi ki, ana, səni Şuşada qarşılayacağam. Şuşadan da bir ev alacağam. Əminliklə deyirdi ki, hər şey yaxşı olacaq. Atamı, bacımı, bacımın balasını sənə tapşırıram ana. Məni kimə tapşırdı bilmirəm. Ayın 26-sı da mesajlaşdıq. Dedim, Raqib, ehtiyatlı ol. Dedi ki, ana, bu müharibədir, hər şey ola bilər. Şərəfli ölmək yaxşıdır. Onda, bəlkə də, anlamırdım. Amma övladım şəhid olandan sonra anladım ki, Raqib nə demək istəyirmiş. Ayın 27-si səhər $8^{30}$-da atasına zəng edib deyir ki, ata, haqqını halal elə. Mən danışa bilmədim.

Ayın 29-u saat $14^{30}$-da almışam Raqibin şəhadətə ucalma xəbərini. Üzümün gülüşü, toy-düyünüm həmin an bitdi. Məzarına gedirəm, amma heç inanmıram ki, o yoxdur. Elə bilirəm, Tərtərdədir, haçansa gələcək. Raqib mənə şərəfli ad verdi, mən də çalışıram ki, həmişə bu şərəfli adı yaşadım. Raqib başımı uca etdi. Döyüş yoldaşları da onu çox xoş xatirələrlə xatırlayır şücaətindən söz açırlar. Zəng edib bizimlə maraqlanırlar. Arzusu general olmaq idi. Deyirdi ki, səni general anası edəcəyəm. Daha böyük, şərəfli ada sahib etdi məni, şəhid anası adına.

# Əsaslı təmirdən sonra istifadəyə verilən məktəb binası təhsilə verilən dəyərin nümunəsidir












Bu gün muxtar respublikada dövlətimiz tərəfindən təhsilin inkişafına hərtərəfli diqqət və qayğı göstərilir, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir, təhsil müəssisələrinin maddi tədris bazası möhkəmləndirilir, infrastrukturu yenilənir. Bu tədbirlərin davamı olaraq Şərur rayonunun Təzəkənd tam orta məktəbi əsaslı təmirdən sonra kollektivin istifadəsinə verilib. Biz də “Şərq qapısı” olaraq yenicə istifadəyə verilmiş məktəbdə yaradılan tədris şəraiti ilə yaxından maraqlandıq.

Öyrəndik ki, 110 şagird yerlik məktəb binasında əsaslı təmir işləri aparılıb, binanın dam örtüyü, qapı və pəncərələri dəyişdirilib, suvaq və boyama işləri həyata keçirilib. Həmçinin STEAM otağında və fizika-kimya laboratoriyasında elektron lövhə quraşdırılıb, kompüter otağına yeni kompüter dəstləri qoyulub, kamera sistemləri quraşdırılıb, kitabxana əlavə ədəbiyyatlarla zənginləşdirilib. Məktəb üçün fərdi qazanxana yaradılıb, binanın həyətində açıq idman qurğuları quraşdırılıb, həyətyanı sahədə abadlıq işləri aparılıb, yaşıllıq sahəsi salınıb, işıqlandırma və suvarma sistemləri yenilənib.

Məktəbin direktoru Sülhiyyə Qafqazi bildirdi: “Məktəbimizin əsaslı təmir olunaraq pedaqoji kollektivin istifadəsinə verilməsi hamımızda sevinc və böyük ruh yüksəkliyi yaradıb. Məktəbdə STEAM kabinəsinin yaradılması şagirdlərin müxtəlif bacarıq və qabiliyyətlərinin üzə çıxarılmasında mühüm rol oynayır. Bu gözəl məktəb binası təhsilə verilən dəyərin nümunəsidir. Çalışacağıq ki, yaradılan şəraitdən səmərəli istifadə edərək dövlətimizə, dövlətçiliyimizə, müstəqilliyimizə sadiq, vətənpərvər məzunlar yetişdirək”.

Məktəbin gənc tarix müəllimi Əli Quliyevlə də həmsöhbət olduq. O bildirdi: “Gənc müəllim olaraq yeni tədris ilində tam təmirli, yeni kommunikasiya sistemi ilə təmin olunmuş məktəbdə öz ixtisasımı tədris etməyin sevincini yaşayıram. Bizə belə bir şərait yaradıldığı üçün dövlətimizə dərin minnətdarlığımı bildirirəm. Mən də bir müəllim kimi hər zaman çalışacağam ki, şagirdlərimiz vətənpərvər, dövlətimizə, millətimizə xeyirli vətəndaşlar kimi yetişsinlər. Bu məktəbin hər bir məzununu gələcəkdə müxtəlif sahələrdə peşəkar mütəxəssis kimi görməyi ümid edirəm”.

Məktəbin XI sinfində təhsil alan şagirdlərdən Sıla Məmmədova və Anar Hüseyinov qeyd etdilər ki, yeni tədris ilində istifadəyə verilən məktəb onlar üçün böyük hədiyyədir. Onlar bu məktəbdə yaxşı oxuyacaqlarına söz verdilər.

Biz də Təzəkənd tam orta məktəbinə öz fəaliyyətində uğurlar arzulayırıq. Qeyd edək ki, bu məktəb binasında əsaslı təmir işləri aparılması, öz növbəsində, yüksək təhsil ənənələri olan rayonda tədrisin səviyyəsinə töhfə verəcək.

# Ölkəmizi Dünya Robot Olimpiadasında təmsil edəcək Hüseyn Tahirov bu yarışa ciddi hazırlaşır



Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən İngilis dili Təmayüllü Gimnaziyanın şagirdi VII Respublika Robot Olimpiadasında Robosports kateqoriyasında I yerin qalibi olub. Biz də “Şərq qapısı” qəzeti olaraq ölkəmizi Dünya Robot Olimpiadasında təmsil edəcək Hüseyn Tahirovla həmsöhbət olub təəssüratlarını öyrəndik: “Robotexnika sahəsinə olan marağım uşaq vaxtlarından başlayıb. Texnologiyaların və mexanizmlərin necə işlədiyini anlamaq istərdim. Məktəbdə keçirilən robototexnika dərsləri mənim bu sahəyə olan sevgimi daha da artırdı və özümü müxtəlif layihələrdə sınamağa başladım. İlk dəfə kiçik robotik layihələr hazırlayarkən onların proqramlaşdırılması və hərəkətə gətirilməsi mənə böyük motivasiya verdi. Yarışlara qatıldıqca bu sahədə özümü daha da inkişaf etdirdim. Keçən il VI Respublika Robot Olimpiadasında 1-ci yerə layiq görülməyim mənim üçün çox böyük nailiyyət oldu və bu, gələcək yarışlarda daha çox irəliləmək üçün mənə motivasiya verdi. Həmçinin “STEAM Azərbaycan 2022” yarışında nominasiya üzrə 2-ci yeri tutmaq mənə öz bacarıqlarımı daha da təkmilləşdirmək üçün stimul oldu. Bundan əlavə, “STEAM Naxçıvan” layihəsi çərçivəsində keçirilən yarışlarda 6 dəfə qalib olmaq mənim təcrübəmi və özünəinamımı daha da artırdı. Bu təcrübələr bu gün VII Respublika Robot Olimpiadasında qazandığım uğurun əsasını qoydu”.

Hüseyn deyir ki, bu yarışa qatılmaq qərarı daha əvvəlki müsabiqələrdə qazandığı təcrübədən irəli gəlib. VII Respublika Robot Olimpiadası onun üçün həm özünü daha yüksək səviyyədə sınamaq, həm də texnologiya sahəsində yeni biliklər qazanmaq üçün bir fürsət idi. Mentor Hüseyn İmanovla birlikdə bu yarışa ciddi hazırlaşıblar.

Hüseynin yarış haqqında ümumi təəssüratları çox müsbətdir: “VII Respublika Robot Olimpiadası mənim üçün yalnız bir yarış deyil, həm də yeni biliklər və təcrübələr qazanmaq imkanı oldu. İştirak edən komandaların müxtəlifliyi və təqdim etdikləri innovativ layihələr mənə ilham verdi. Hər kəsin robotlarının işləmə prinsiplərini, yaradıcı yanaşmalarını və layihə ideyalarını görmək çox maraqlı idi”.

Hüseyn İzmir şəhərində noyabr ayında Azərbaycanı təmsil edəcəyi üçün çox həyəcanlıdır. Ancaq Naxçıvanın adını 1-ci yerə daşımaq onun üçün böyük bir qürurdur. O, İzmir yarışında iştirak edərək daha çox təcrübə qazanacağına və Azərbaycanı ən yaxşı şəkildə təmsil edəcəyinə inanır.

Onun dediklərindən: “Ailəm, Naxçıvan Dövlət Universiteti və universitetin nəzdindəki gimnaziyanın rəhbərlikləri də mənim üçün böyük dəstək olub. Onlar bütün texniki çatışmazlıqlarımı aradan qaldıraraq mənə uğurlu nəticələr qazanmağa kömək etdilər. Bu mühitdə böyümək və inkişaf etmək, uğurlarıma təkan verdi”.

Biz də Türkiyənin İzmir şəhərində keçiriləcək Dünya Robot Olimpiadasında Robosports kateqoriyası üzrə ölkəmizi təmsil edəcək Hüseyn Tahirova uğurlar arzulayırıq. Qeyd edək ki, bu beynəlxalq yarış dünyanın müxtəlif ölkələrindən ən yaxşı robotexnika mühəndislərinin və texnologiya həvəskarlarının bir araya gəldiyi möhtəşəm bir tədbirdir.

# Qalibiyyətimizin sirri komanda şəklində çalışmaq oldu

Bakı şəhərində yeniyetmə və gənclər arasında keçirilən VII Robot Olimpiadasına yekun vurulub. Olimpiadada naxçıvanlı şagirdlərdən ibarət “ROGER” komandası da iştirak edib və Robosports kateqoriyası üzrə 3-cü olublar. Komandanın üzvləri Tayfun İmanlı və Məhəmmədəli Məmmədov olimpiada barədə təəssüratlarını “Şərq qapısı” qəzeti ilə bölüşüblər.

Müsahiblərimiz deyir ki, onların bu sahəyə marağı kiçik yaşlarından başlayıb. STEAM mərkəzinə qatıldıqdan sonra öz üzərlərində çalışıb özlərini bu istiqamətdə təkmilləşdiriblər: “Sosial şəbəkələrdə Dünya Robot Olimpiadasının keçiriləcəyi haqqında xəbər öyrəndikdən sonra müəllimlərimizə müraciət etdik . Onlar da öz növbələrində bizi qeydiyyatdan keçirdilər. Bu müddət ərzində əllərindən gələn dəstəyi göstərdilər və bizi yarışa daha yaxşı hazırlaşdırmaq üçün hər zaman dəstək oldular. Olimpiadadan əvvəl komanda yoldaşım ilə birlikdə robotları qurmağa başladıq. İlk olaraq bu işin mühəndislik tərəfini həll etdik. Yarış 3 gün davam etdi: ilk günü test yarışı idi, biz komanda olaraq birlikdə robotumuza yazdığımız kodu yoxladıq və robotda olan 1-2 xətanı həll etdik. Yarışın 2-ci günü rəqib komandalar arasında daha çox rəqabət var idi”.




“ROGER” komandasının üzvləri qeyd edir ki, bu dövr ərzində müəllimlərin dəstəyi xüsusilə çox olub: “Təkcə biz yox, yoldaşlarımızdan daha 2 komanda bu yarışda iştirak etmək hüququ qazanmışdılar. Biz komanda olaraq bu mərhələyə keçdiyimiz üçün həyəcanlı idik. Yarış müddəti çox əyləncəli keçdi. Bununla yanaşı, bu sahə üzrə müxtəlif təcrübələr əldə etdik. 3-cü yerin qalibi olmaq bizləri sevindirdi. Gələcəkdəki məqsədimiz isə digər yarışlara qatılıb Naxçıvanı layiqincə təmsil etməkdir. Bundan sonrakı mərhələlərdə əzm və iradə ilə çalışacağıq”.

Olimpiadada uğur qazanan şagirdlərimiz deyir ki, qalib olmağın sirri komanda olaraq çalışmaqdır: “Bir-birimizi hər mərhələdə daim dəstəklədik və bu da qalib olmaq üçün bizdə əlavə motivasiya yaratdı. Nəticədə, biz naxçıvanlı şagirdlər VII Robot Olimpiadasının qaliblərindən biri olduq”.

Biz də gəncləri təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayırıq.

✍ Bülbül QULİYEVA

# Əl əməyi-göz nuru ilə ərsəyə gələn gözəlliklər



Ölkəmizdə, eləcə də dünyada yaşayan bir çox xalqlar arasında geniş yayılmış sənət sahələrindən biri toxuculuqdur. Qədim zamanlardan insanlar uzun və yumşaq ağac budaqlarından yaşayış evləri üçün dam örtüyü, çəpər hazırlamış, səbət, zənbil kimi müxtəlif əşyalar hörmüşlər. Bu üsulla qamışdan, kəndirdən, dəridən, məftildən, otlardan, çiçəklərdən gözoxşayan əşyalar hazırlamışlar. Hörmənin inkişafı sonrakı dövrlərdə toxuculuğun inkişafına şərait yaratmışdır. Bu gün həyatımızda toxuculuq sənətinin tutduğu yer barədə geniş danışmağa ehtiyac yoxdur. Eyni zamanda bu sənətin bir çox sahələri olduğu da məlumdur.

Bu yazımızda isə daha çox rəngarəng iplərdən hazırlanmış əl işlərindən, xüsusən müasir dövrdə daha çox maraq cəlb edən amiqurumi sənətindən bəhs edəcəyik.

Amiqurumi nədir? Bu sənət Yaponiyadan dünyaya yayılıb. Ami “mil və milçə ilə toxunan”, nuigurumi “içi doldurulmuş oyuncaq” kəlmələrindən yaranıb. Adından da bəlli olduğu kimi, amiqurumi balacaların marağını və sevgisini qazanan, rəngarəng iplərdən hazırlanmış oyuncaqlara deyilir. Muxtar respublikamızda əl əməyi ilə zövqoxşayan gözəlliklər ərsəyə gətirən çoxlu zəhmətkeş xanımlarımız var ki, onlardan biri də amiqurumi sahəsində işinin ustası sayılan Sədəf Xudiyevadır. O, cürbəcür toxuculuq, dekorativ-tətbiqi sənət nümunələri, zərgərlik nümunələri də hazırlayır. Üstünlüyü isə amiqurumiyə verib.

Bu işin incəliklərini öyrənmək üçün Sədəf xanıma müraciət edirik. Toxuculuğa marağının orta məktəbdə oxuduğu illərdə başladığını bildirən müsahibim bu yolda anasından bəhrələndiyini söyləyərək ona minnətdarlıq edir. O deyir: “5 il əvvəl qərara gəldim ki, bu sahədə də özümü sınayım. Nə yaxşı ki, amiqurumi sənətinə maraq göstərdim. Çünki bu sənət, həqiqətən də, sehrlidir. Məncə, bu sənətin ən əsas incəliyi öz sevgini gördüyün işə verə bilməkdir. O sevgi, o maraq qalan bütün gözəllikləri özü ilə gətirir. Bu işə başlayanda düşünürdüm ki, hazırladığım oyuncaqlar, sadəcə, balaca dostlarım üçün maraqlı olacaq. Sonradan yanıldığımı anladım. Çünki hər yaş kateqoriyasından olan insanlar mənim alıcılarım sırasındadırlar. Xüsusilə vurğulamaq istəyirəm ki, bu işin incəliklərindən biri oyuncaq hazırlayarkən seçilən rənglərin bir-biri ilə uyumlu olmasıdır. Ona görə də işə başlamazdan əvvəl rəng seçiminə xüsusi diqqət edirəm. Bəzən bu, 2-3 gün vaxtımı alır. Çünki rənglər vəhdət təşkil etməzsə, görülən iş göz oxşamaz.



Hər bir rəngin özünəməxsus gözəlliyi vardır. Bu gözəllikləri ortaya çıxarmaq üçün rənglərdən yerindəcə istifadə etmək lazımdır. Mən və mənim kimi bir çox yaradıcı insanın istəyi gördüyü işi insanlar üçün sərgiləyə bilməkdir. Bu məsələdə bizə dəstək olduğu üçün dövlətimizə minnətdarıq. Keçirilən sərgilər, satış yarmarkaları öz əl işlərimizi tanıtmağa geniş şərait yaradır. Əsas məqsədim sərgilərdə fərqli əl işləri ilə iştirak etməkdir. Yaxın zamanlarda keçiriləcək sərgidə amiqurumi oyuncaqlar, toxunma geyimlər, çantalar, dekor qablar, sırğalar və digər məhsullarla iştirak etməyi planlaşdırıram. İnanıram ki, hazırladığım əl işlərim insanların zövqünü oxşayacaqdır”.

✍ Türkanə ƏSƏDOVA

# Əlincə, Şuşa və “Zəfər nəğməsi”

## İbrahim Yusifoğlunun 70 yaşı münasibətilə yubiley hekayəsi



Özü ilə də, imzası ilə də çoxdan tanış olduğum İbrahim Yusifoğlu ilə mənim bir oxucu kimi fəal ünsiyyətim onun “Ədəbiyyat qəzeti”ndən oxuduğum bir yazısından – “Qəlbindən Vətən boylanır” şeirindən başlayıb. Bu ünsiyyətin yaranmasının başlıca səbəbi, heç şübhəsiz ki, şeirin “Ömür-gün yoldaşı şəhid olmuş mərd qadına” müraciətlə yazılması, taleləri torpaqlarımızın azadlığı, Vətənimizin bütövlüyü uğrunda müharibədə yaralanmış insanlara həsr olunmasıdır:

*Sinən dözdü çarpaz dağa,*
*Şəhid verdin nəm torpağa.*
*Döndün saralmış yarpağa...*
*Günəş sönüb, çən boylanır.*

Düşünürəm ki, müharibənin acı həqiqətini göz önündə sərgiləyən bu şeir mənim kimi həyat yoldaşını müharibədə itirən, şairin sözləri ilə desək, üzdə şən gülən, ürəkdə lal ağlayan, “qara örpək, şal bağlayan”, taleyinin günəşi sönən, günəşin söndüyü yerdən duman qalxan, çən boylanan minlərlə qadının ömründən keçir, minlərlə ailəyə, onların övladlarına təsəlli verir, kədərinə şərik olur.

Bu şeirlə ünsiyyətdən, xəyali söhbətdən ürəyimə dolan duyğuların mənə dedikləri bir də bu olub ki, ömür-gün yoldaşı müharibədə şəhid olan qadınlar getdikcə dərdə alışır, onlar üçün dərdin acısı bala çevrilir. Sən o dərdi şərbət kimi içir, canına hopdurursan. Zaman keçdikcə ürəyində yurd salan dərd səninlə doğmalaşır. Vətən uğrunda canını fəda edən şəhidin xatirəsi dərddən yüksəyə ucalıb müqəddəsləşir, Vətənin rəmzinə çevrilir. Ancaq dəyişən zaman içində həyat yoldaşı şəhid olan qadının daim “qəlbindən Vətən boylanır”. Bu duyğu anadan övladına, övladından da nəvələrinə ötürülür:

*Bu gün ana, həm nənəsən,*
*Səndən olmaz, birdənəsən.*
*Göylər boyda ümmansan sən,*
*Qəlbindən Vətən boylanır.*

İbrahim Yusifoğlunun yaradıcılığında Vətən mövzusu şəhidlərimizin canını fəda etdikləri ana yurdun dəyərlərini özündə hifz edən tarixi rəmzlər ilə vəhdət təşkil edir. Bu mənada, “Əlincə” və “Şuşa” kimi şeirləri şairin yaradıcılığında Vətən sevgisinin, vətənpərvərlik ruhunun tarixin dərinliklərindən gəldiyini göstərir. İxtisasca müəllim olan İbrahim Yusifoğlunun bu cür şeirlərinin tərbiyəvi dəyəri də ayrıca qeyd olunmalıdır. Şeirdə tamaşasına duran hər kəsi özünə qəlbən bağlayan, əyilməzlik rəmzi olan, zalım şahlara və zülmə baş əyməyən, daim başını dik saxlayan məğrur Əlincə qalası barədə düşüncələr şairin oxucuya təlqin etdiyi qürur hissi ilə müşayiət olunur. “Əlincə” şeirini oxuyanda tarixin içindən “Cəngi” havası səslənir, qanlı döyüşlərə, sərt sınaqlara, müharibələrə şahidlik edən bu qala keçmişimizdən, dədə-babalarımızdan miras qalan dəyərlərimizi bir daha bizə xatırladır:

*Qalada igidlər döyüş anında,*
*“Cəngi” səsləndirib, söz söyləyiblər.*
*Kimin gücü olub hələ canında,*
*Düşmənin üstünə od ələyiblər.*

“Əlincə” şeiri ilə bizi keçmişimizə aparan, əslimizi-soyumuzu sevdirən, dəyərlərimizi tərənnüm edən müəllif bu dəyərlərin yalnız qılıncların kölgəsində, müharibələrin barıt qoxusunda, qanlı döyüşlərdə olduğunu demir. Bu dəyərlər həm də yaranışdan bəri gözoxşayan, könülaçan gözəllikdə, təbiətdən insanlara keçən zəriflik, sevgi və mərhəmət duyğusundadır. Beləliklə, Əlincə qalası oxucunun təsəvvüründə qəhrəmanlıqla gözəlliyi özündə birləşdirən bir tarix abidəsi kimi ucaldılır:

*Burda sipər olub hər daş, hər qaya,*
*Düşmənin yolunu bağlayıbdılar.*
*Barıt qarışa da, torpağa, çaya,*
*Güllər öz ətrini saxlayıbdılar.*

İbrahim Yusifoğlunun “Şuşa” şeirini məzmun və tərənnüm olunan dəyərlər baxımından “Əlincə” şeirinin davamı da adlandırmaq olar. Bu şeir də tariximizlə bu günümüz arasında körpü salır, ruhumuzda yaşayan dəyərlərin qaynaqlarına işıq tutur, bu işıq altında tarixi bizə, bizi də tarixə yaxınlaşdırır. Şuşanı tarix dəfələrlə sınağa çəksə də, Şuşa bəzən bəd nəzərə, yaman gözə gəlsə də, tarixin sınaqlarından həmişə üzüağ, qələbə ilə çıxıb:

*Necə yol gəlibdi bəd gözlə tuşa,*
*Hər vaxt qalib çıxıb döyüşdə Şuşa...*

Tarix Şuşanı bir də bizim zəmanəmizdə, Azərbaycan özünün dövlət müstəqilliyinə qovuşduğu illərdə sınağa çəkdi. Bizə düşmən olan, Şuşa daim ox kimi gözünə batan xain qonşu arxasında duran qüvvənin təhriki və köməyi ilə Şuşanı işğal etdi. Şuşanın övladları pərən-pərən salındı, sərvətləri talandı. Şuşanın işğal altında olduğu illər Azərbaycan xalqı üçün nə qədər sarsıdıcı olsa da, xalqın öz keçmişindən və sınanmış dəyərlərindən güc alan yenilməz ruhu bununla barışmadı. Xalq da, onun rəhbəri də tarixi ədalətin qalib gələcəyinə inamını itirmədi, azadlıq eşqi, “haqq nazilər, üzülməz” inancı ilə yaşadı. Səbrimizi daşıran isə xam xəyallara qapılan qarı düşmənin Şuşanın Cıdır düzündə “dingildəməsi”, Şuşada kef məclisi qurması oldu. Bu ağrılı tarixi İbrahim Yusifoğlu “Şuşa” şeirində belə canlandırır:

*Qoynu tapdaq oldu, inildəyibdi,*
*Yadlar rəqs eyləyib, dingildəyibdi,*
*Sərxoş qədəhləri cingildəyibdi,*
*Dönüb qəfəsdəki dərdli bir quşa,*
*Azadlıq eşqiylə yaşayıb Şuşa.*

Yetmiş yaşını qeyd etdiyimiz İbrahim Yusifoğlunun – “Dağların şair oğlu”nun yaradıcılığı mövzu baxımından ana Vətənimizin təbiəti kimi zəngin və rəngarəng, torpaqlarımız kimi bərəkətlidir. Şair “Zəfər nəğməsi” şeirində yazır:

*Döyüşlərdə dönər dəmir yumruğa,*
*Haya yetən xilaskar quş Simurqa.*
*Səslənəndə el qovuşar xoş çağa-*
*Zəfər nəğməsi.*

*İgidlərlə o, eyləyər yoxdan var,*
*Mərd əllərdə ilmələnər, toxunar,*
*Azad eldə, azad dildə oxunar-*
*Zəfər nəğməsi.*

Bu şeir öz bütövlüyü üçün 30 ildən artıq müharibə şəraitində yaşamaq məcburiyyətində qalan bir ölkənin müqəddəs torpaqları uğrunda canlarından keçən şəhidlərinin intiqam sədası, qəlbindən sağalmaz yaralar almış şəhid ailələrinin təsəllisi, yenidən öz yurdlarına, doğma ocaqlarına qovuşan qaçqınlarımızın qayıdış nəğməsi, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə gələcəyə inamla gedən qalib ölkənin – Azərbaycanın təntənəli qələbə marşı kimi səslənir...

**Arzu Kazımqızı NEHRƏMLİ**

# Zəfərə gedən yol, yaxud qalibiyyətimizi düşünərkən…



**Gülcamal TAHİROVA**

27 sentyabr 2020-ci il… Bu şanlı tarix xalqımızı böyük zəfərə aparan yolun başlanğıcı oldu. Vətən uğrunda haqq savaşımız başladı bu tarixdə… Qələbəyə gedən yol çox keşməkeşli idi xalqımız üçün. Dədə-baba yurdumuzdan özünə torpaq qəsb etməyə çalışan məkrli düşmən illər boyu həsrət qoydu Vətəni müqəddəs torpaqlarına. İllər ötdükcə Vətən həsrəti ilə yanan bağrımız alovlandı, haqqımız nazilərkən… Ancaq nazilsə də, üzülmədi haqqımız, tükənmədi səbrimiz, qırılmadı ümidimiz. Nə vaxtsa bir gün vüsala çatacağımıza şübhə etmədik, çünki dövlətimizin qüdrətinə, ordumuzun gücünə hər zaman inandıq. Yanılmadıq, məyus olmadıq, əksinə, qürurlandıq verilən hər qərarla, fəxr etdik düşünülərək atılan hər addımla, fərəhləndik yenilməz ordumuzla, tək yumruq olduq mübariz xalqımızla, öyündük mərd, cəsur, qorxmaz, igid oğullarımızla… Öz haqqımız – düz 30 il qara bağlayan Qarabağımız uğrunda bir an belə düşünmədən döyüşə atıldı on minlərlə hünərli, qeyrətli oğullarımız. Yazdığı qəhrəmanlıq salnaməsi ilə bütün dünyaya göstərdi Azərbaycanın qüdrətini, gücünü, birliyini. Müstəqilliyimiz, torpaqlarımızın toxunulmazlığı uğrunda gözünü qırpmadan özünü odlu-alovlu cəbhəyə atan igidlərimizi müqəddəs bir amal birləşdirirdi bu tarixdə: “Vətən sağ olsun!” Bu amalla yaşayan təkcə igidlərimiz deyil, onlara bu cəsarəti, bu gücü verən, sıralarını möhkəm edən xalq-ordu birliyi idi həm də.

Xalqımız vahid bir yumruq altında birləşib, “dəmir yumruq” oldu. Elə bir yumruq ki xalqın gücünü, vəhdətini, mübarizliyini bütün dünyaya göstərdi. Xalq “dəmir yumruq” ətrafında birləşdi, bu yumruqla daha da qüvvətləndi, mübarizləndi. Bu yumruqla irəlilədi qələbəyə doğru. Haqq savaşımızda, vətən, bayraq, torpaq uğrunda kimisi şəhid oldu, kimisi qazi. 44 günlük haqq savaşımızda şəhid verən əsgər analarımız böyüdüb boya-başa çatdırdıqları övladları yolunda ah-nalə çəkmədilər, fəxarətdən gözyaşı tökdülər, atalar belibükük deyil, başı dik dayandılar, övladlarının cənazəsi bükülən bayrağı öpərkən “Təki Vətən sağ olsun! Biz oğulu bayraq üçün, torpaq üçün böyütdük”, – dedilər. Övladı, yarı Vətən uğrunda döyüşlərdə can verən, qan tökən qadınlar şəhid cənazələrini çiyinlərinə alıb şərəflə daşıdılar. Qürur duyduq, fəxr etdik, yurdumuzun Nigar kimi ər qeyrətli, Həcər kimi dəyanətli, əyilməz iradəli, böyük ürəkli qadınları ilə…

Düz dörd ildir ki, dövlətimiz 30 illik bir tarixi yeniləd. 30 illik bir işğal tarixini dəyişdi. 30 il sonra 44 günlük bir zəfər tarixinə imza atdı. Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, əzmli və azad olmamışdı. Bu, dövlətin mükəmməl siyasəti, xalqın inamı nəticəsində baş verdi. Bu inamı doğruldansa yenilməz sərkərdə və xalq vəhdəti oldu. Liderimizin qətiyyətinin nəticəsi idi ki, ən ağır vəziyyətlərdə belə Azərbaycan xalqı heç kimin qarşısında baş əymədi, sözünü cəsarətlə və inamla deyə bildi. “Qarabağ Azərbaycandır və nida”, tribunadan deyilən bu fikir sahibinin dünyaya çağırışı da əbəs yerə deyildi. Bu həddini aşanlara bir səsləniş, bir xəbərdarlıq idi. Bu ifadəni bütün dünyaya əməli ilə sübut edən qalib sərkərdənin bir çox yersiz fikirlərə qoyduğu nöqtə idi. Məhz “dəmir yumruq” siyasətinin nəticəsidir ki, bu gün biz rahatlıqla deyə bilirik ki, “Qarabağ Azərbaycandır!”

…Biz bu gün xoşbəxtik, biz bu gün qürurluyuq. Çünki azadlığı, müstəqilliyi, müqəddəs torpağı uğrunda şəhid verən xalq xoşbəxt xalqdır. Bu mənada, Azərbaycan xalqının qürur hissi keçirməyə, başını uca tutmağa tam mənəvi haqqı var. Bu haqqı bizə verən ömürlərinin bahar çağında Vətən torpağı uğrunda canlarını qurban edən Vətən oğullarıdır. Onlar yurdumuzun hər yerini əbədi laləzara çevirən solmaz fidanlardır. Bu şərəfli yolda hünərlə addımlayan, Vətən darda olanda onun hayına çatan, yağı gülləsinin qarşısına igidcəsinə çıxan, Vətənə tükənməz məhəbbətin son zirvəsinə ucalmaq kimi müqəddəs bir amal üçün haqq savaşında məharətlə vuruşan, məzarları ilə uyuduqları məkanı müqəddəs ziyarətgaha çevirən qəhrəman eloğullarımızın ruhu Vətən göylərində indi azaddır. İllər ötüb, qərinələr dolaşsa da, bu tarix və onlar əsla unudulmayacaq, başımızı uca edən ərənlərimiz həmişə minnətdarlıq duyğuları ilə anılacaq.

# Muxtar respublikanın kəndlərində yeni içməli və suvarma su xətləri çəkilir

Cari ilin yanvar-avqust aylarında muxtar respublikanın bütün bölgələrində əhalinin su təminatını yaxşılaşdırmaq məqsədilə müvafiq işlər həyata keçirilib. Bu çərçivədə Babək rayonunun Qahab kənd kaptajından Naxışnərgiz kəndində yerləşən subartezian quyusunun supaylayıcı qurğusuna 750 metr uzunluğunda yeni sugətirici, Çeşməbasar kəndində 3288 metr ana, 3000 metr paylayıcı, Güznüt kəndində 2650 metr paylayıcı, Qaraqala kəndi üçün yeni qazılmış subartezian quyusundan isə 1450 metr uzunluğunda suaparıcı boru xətləri çəkilib. Eyni zamanda 2,87 kilometr mövcud içməli su xətlərində təmir-bərpa işləri görülüb. Rayonda suvarma su təminatının yaxşılaşdırılması məqsədilə suvarma boru xətlərinin 5,69, təzyiqli boru xətlərin isə 2,95 kilometr hissələrində təmir işləri aparılıb.

Bu sözləri “Şərq qapısı”na açıqlamasında Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Su Meliorasiya Xidmətinin Elektro mexaniki qurğuların istismarı və nəqliyyat şöbəsinin mütəxəssisi Telman Rzayev söyləyib.

Bu il su təchizatı istiqamətində görülən işlərin Culfa rayonunun yaşayış məntəqələrini də əhatə etdiyini vurğulayan mütəxəssis deyib: “Rayonun Bənəniyar və Əbrəqunus kəndlərində içməli və suvarma su təminatını yaxşılaşdırmaq məqsədilə tərəfimizdən tərtib olunmuş layihə-smeta sənədlərinə əsasən müvafiq tədbirlər həyata keçirilib. Belə ki, Bənəniyarda 4 kilometrlik suvarma, 3,5 kilometrlik içməli, Əbrəqunusda isə 1,85 kilometr uzunluğunda suvarma, 1,8 kilometrlik içməli su xətlərinin çəkilişi planlaşdırılıb. Artıq plastik borularla Bənəniyar kəndində 3,41, Əbrəqunusda isə 1,85 kilometr uzunluğunda suvarma su xətləri inşa olunaraq istifadəyə verilib”.

“İçməli su təminatının yaxşılaşdırılması məqsədilə isə Bənəniyar kəndində diametri 90 millimetr olan plastik borularla 1,2 kilometr uzunluğunda boru xəttinin çəkilişi aparılıb. Ümumi 46 çıxışlı 3 ədəd subölüşdürücü quraşdırılaraq 19 evi içməli su ilə təmin edəcək boru xətləri çəkilib. Əbrəqunus kəndində isə diametri 90 millimetr olan istismar müddətini başa vurmuş metal boruların 600 metr hissəsi yeni polietilen borularla əvəz edilib. Bundan əlavə, Bənəniyar kəndində 39 evi su ilə təmin edəcək 1 subartezian quyusunun qazıntı işləri hazırda davam etdirilir. Əbrəqunus kəndində isə 90 evi su ilə təmin edəcək 2 yeni subartezian quyusunun inşa olunması nəzərdə tutulub ki, artıq onlardan birinin qazılmasına başlanılıb”, – deyə Telman Rzayev əlavə edib.



# Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində ilk dəfə olaraq Kompüterlərin təmiri və xidməti üzrə texnik ixtisası yaradılıb



“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda əsas prioritet hədəflərdən biri də muxtar respublikada peşə təhsilinin əhatəsinin genişləndirilməsidir. Proqrama uyğun olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində yeni tədris ilindən 13 yeni ixtisas yaradılıb ki, onlardan biri də Kompüterlərin təmiri və xidməti üzrə texnik ixtisasıdır.

Yeni ixtisasda tələbələr kompüterlərin tərkib hissələrinin arxitekturası, kompüterlərin yığılması, təmiri, o cümlədən onlara texniki qulluq və modernləşdirilməsi ilə bağlı təcrübi biliklərə yiyələnəcəklər.

Birillik kursu bitirdikdən sonra məzunlar müstəqil şəkildə müxtəlif növ kompüterləri yığacaq və Windows əməliyyat sistemini yükləyəcək, konfiqurasiya modernizasiyasını həyata keçirəcək, stasionar kompüterlərə, noutbuklara texniki xidmət göstərə biləcəklər.



# Torpaqla, təbiətlə iç-içə

***Yeni bir tendensiyaya çevrilmiş ailə təsərrüfatları istehsal zənginliyini artıran, kənd təsərrüfatı dünyasının mərkəzinə çevrilən, bu həyatın ayrılmaz parçası, ruhu olan daha mütərəqqi metoddur. Ailə təsərrüfatları daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatı ilə yanaşı, özünüməşğulluğun təmin olunmasına və iqtisadi inkişafa da mühüm töhfə verir. Bu sahənin inkişafı istiqamətində görülən ardıcıl tədbirlər ailə təsərrüfatlarının sayının getdikcə artması və ailə biznesinin genişlənməsi ilə nəticələnir.***

Nehrəmin məşhur qarpızı, qovunu, pendiri, qarpız turşusu, Ordubadın sucuğu, meyvə quruları, alanası, müxtəlif növ mürəbbələr, Sədərəyin təndir çörəyi, Şərurun kartofu, soğanı, Şahbuzun dağ bitkiləri, Çalxanqalanın məşhur üzüm şərabı, Culfanın yarması, əriştəsi, heyvası, sobu turşusu, hinduşka əti və hətta müxtəlif növ losyonlar, meyvə araqları, meyvə sirkələri, konserv məhsulları, daha nələr-nələr – bunların hamısı bu torpaqda ailə təsərrüfatçılarının istehsal etdiyi dəyərli məhsullardır.

Kənd təsərrüfatına və ailə təsərrüfatlarına dəstək olmaq üçün, sadəcə, bu sahə ilə məşğul olmaq kifayət etmir. Onun tanıtımıyla, təbliğiylə, istehlakçı alışqanlıqlarımızı dəyişdirməklə, biomüxtəlifliyə əhəmiyyət verməklə də dəstək ola bilərik. Bir istehlakçı olaraq bu şəkildə sektorun gələcəyinə çox ciddi dəstək vermiş oluruq.

Naxçıvanda bunun ən yaxşı modeli ailə təsərrüfatı məhsullarının satış yarmarkalarının keçirilməsidir. Bütün rayon mərkəzlərində və Naxçıvan şəhərində keçirilən bu yarmarkalar yolu ilə istehsalçılar məhsullarını satmaq üçün yeni bazarlar əldə edirlər, tanınırlar, istehlakçılar isə ekoloji təmiz məhsulları, ailə əməyinin bəhrəsi olan nemətləri əldə etməklə onlara dəstək verirlər.

Kənd təsərrüfatında yeni üsullar tətbiq etməklə, yeni istehsal modelləri yaratmaqla və digər üsullarla istehsalı artırmaq üçün elm adamları geni modifikasiya olunmuş (GMO) məhsulları "icad etdilər". Artıq mediadan hər birimizə yaxşı məlum olan bu üsulla bir çox kənd təsərrüfatı məhsullarının genetikaları dəyişdirilərək daha məhsuldar sortlar əldə edilməyə başladı. Məsələn, 5 kiloluq kartof, 4 kiloluq toyuq, 2 kiloluq pomidor və ya 100 kiloluq qoyun və sair. Əgər bunları yetişdirmək ehtiyacdan yaranmış bir çarə idisə, artıq, nəticə etibarilə, o ehtiyacdan yaranmış çıxış yolunun özü bu gün çarə olmaqdan çox problemə çevrilməyə başlayıb. Məhz bunun qarşısını almaq üçün təbii şəraitdə, təbii şərtlərlə təbii məhsul istehsalını artırmağa çalışmalıyıq. Bunun üçün ən yaxşı yol isə elə ailə təsərrüfatçılarının, kiçik fermer-kəndli təsərrüfatlarının inkişafına dəstək vermək və onların istehsal etdiyi məhsulları almaqla onlara dəstək olmaqdır. Əgər süni qidalardan çox istifadə etsək, kifayət qədər çox təbii növlə qidalana bilməsək, immun sistemimiz zəifləyərsə, xoşagəlməz nəticələr meydana çıxar.

Təbiətdə çeşidlilik var. Bu çeşidliliyə sahib çıxmaq lazımdır. Sadəcə, öz sağlamlığımız üçün deyil, təbiətin də sağlamlığı üçün. Bu dağlarda və düzənlərdə yüzlərlə növdə





yabanı meyvə-tərəvəz və dərman bitkiləri yetişir. Tarixən həmin sərvətlərdən məişətdə və xalq təbabətində geniş istifadə olunub. Bu gün də kəndlərdə yabanı meyvə-tərəvəz və dərman bitkilərinin istehsalı sahəsində ixtisaslaşmış ailə təsərrüfatları fəaliyyət göstərir. Yemişan, həmərsin mürəbbəsi, cacıq, baldırğan, bolu, sobu, çaşır turşusu, dağ alçasının lavaşası, dağ armudunun turşusu – bunların hamısı təbiətin heç bir qarşılıq güdmədən insanoğluna bəxş etdiyi məhsullardan hazırlanır. Təbiətin yetişdirib insana səxavətlə təqdim etdikləri onun qida rasionunun əhəmiyyətli bir hissəsini təşkil etməklə, eyni zamanda ailəsinin də dolanışıq mənbəyinə çevrilir. Yay boyu dağları qarış-qarış dolaşmaq, bu nemətləri yığıb onlardan növbənöv təamlar hazırlamaq nə qədər çətin olsa da, bu da ailə təsərrüfatlarının təbiətdən süfrələrimizə bəxş etdiyi əvəzsiz qidalardır. Buna bir həyat tərzi də demək olar. Onlar təbiətdən istehsal etdikləri məhsulu satırlar və bunun vasitəsilə həyatlarını təmin edirlər.

Zaman dəyişdikcə istehsalçının istehsal etdiyi məhsulun nə qədər dəyərli olduğunu, yediyimiz qidaların nə qədər əhəmiyyətli olduğunu anlayırıq və məhsul bizə gələnə qədər keçdiyi istehsal proseslərini daha çox sorğulamağa başlayırıq. Əhalinin fəaliyyət yönümü kənd təsərrüfatının ənənəvi sahələri olsa da, burada yeni təşəbbüslər icra olunur, aqrar sektorun müasir innovativ istiqamətləri sınaqdan uğurla çıxarılır.



Təsərrüfatçının qazancı torpaqdan, mal-heyvandan, bağdandır. Min bir əziyyətlə hazırlanan məhsul əldə qalmırsa, niyə də ailə olaraq bu iş görülməsin ki? Kəndlini əməyə, torpağa bağlayan səbəb də elə budur. Buna görə işlərini sevirlər. İlkin yazdan ta payızın sonlarınadək, qışın sərt şaxtalarında, yayın yandırıcı Günəşində belə təsərrüfatçının gündəlik qayğıları, görməli olduğu işlər davam edir. Nəticədə, zəhmət gözəl şeydir, ailə əməyinin bəhrəsi isə daha şirindir.

...Tarix həmişə çayların sahilində yazılıb. Dağlar, axar sular, ovalıqlar insanoğlunun həyatına da forma verib. Buna görə də torpaq insanlara hansı məhsulu təqdim edirsə, süfrə də o məhsulla bəzədiləcək. Kənd təsərrüfatı strateji sektordur. "Məndə yetişmirsə, qonşudan alaram", – deməklə bir sıra yeniliklərdən və təcrübələrdən çəkinməyə ehtiyac yoxdur. Özümüz bizə lazım olan hər bir məhsulu istehsal etməyi öyrənməliyik. Bunun ən yaxşı yolu isə modern dünyanın həngaməsindən uzaqda sahib olduqlarımızın dəyərini bilmək, onu qorumaq, gələcək nəsillər üçün dəyərli miras kimi saxlamaq, təbiətimizi, onun bizə verdiyi nemətləri sevməyi öyrənməkdir.

**Məmməd BABAYEV**

## 27 sentyabr – Anım Günü münasibətilə ağacəkmə aksiyası keçirilib



Vətən müharibəsinin dördüncü ildönümü ərəfəsində şəhidlərimizə ehtiram əlaməti olaraq Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə ağacəkmə aksiyası keçirilib.

Uzunoba gölünün ətrafında icra hakimiyyətinin və tabeli qurumların 200 nəfər əməkdaşının iştirakı ilə keçirilən aksiyada əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Vətən müharibəsi şəhidlərinin Anım Gününə ehtiram əlaməti olaraq Naxçıvanın iqliminə uyğun 3000-dən çox meşə və meyvə ağacı, 450 gül kolu əkilib.

Həmçinin yeni əkilən ağaclara qulluq göstərilməsi üçün müasir suvarma sistemi quraşdırılıb və əraziyə cavabdeh şəxslər müəyyən olunub.

## Naxçıvan boksçusu beynəlxalq turnirin mükafatçısı olub



Belarusun Jabinka şəhərində keçirilən yeniyetmə boksçular arasında beynəlxalq turnirə yekun vurulub. Azərbaycan millisi yarışı 7 medalla başa vurub.

Millimizi 63 kiloqram çəki dərəcəsində təmsil edən Naxçıvan boksçusu Haqverdi Həsənov turnirin gümüş medalına sahib çıxıb.

Ölkəmizin digər təmsilçilərindən İmran Axundov (52 kiloqram), Şahin Aslanov (60 kiloqram) və Səfdər Məmmədzadə (+80 kiloqram) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Nihat Qasımov (50 kiloqram) gümüş, Sübhan Babayev (57 kiloqram) və Əflatun İsmiyev (54 kiloqram) isə bürünc medal qazanıblar.


## İtmişdir

Şərur rayonu, Mahmudkənd sakini Rüstəmov Əli Məmməd oğlunun adına olan JN-147$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad şəhəri, N.Rəfiyev küçəsində Məmmədov Fəxrəddin Ramazan oğlunun adına olan evin 2487 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Stansı-Daşarx kəndində yaşamış Quliyeva İncə Cəlil qızının adına verilmiş JN-487$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Firdovsi küçəsi 3/7$^{A}$-da yaşayan Məmmədov Ramin Müslüm oğlunun adına olan AA-008065 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində yaşamış Həşimov Məmməd Murtuz oğlunun adına verilmiş 66 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq qəsəbəsində yaşamış Zeynalov Hüseyn Məhərrəm oğlunun adına olan JN-264$^{B}$ nömrəli, 10211018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Həsən Əliyev küçəsi, bina 2, mənzil 30-da yaşamış Rzayeva Firəngiz Mustafa qızının adına olan evin 6796 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində Batabat restoranına məxsus Əsədov Natiq Əli oğlunun adına verilmiş 151 inventar nömrəli texniki pasport və 59 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kərimbəyli kənd sakini Ocaqquliyev Vilayət Ramazan oğlunun adına olan JN-358$^{B}$ nömrəli, 10308018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində Quliyev Hüsaməddin Beytulla oğlunun adına verilmiş JN-151 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kəndində Allahverdiyev Vidadi İsmayıl oğlunun adına olan A-018248 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kürkənd sakini Babayev Hicran İbrahim oğlunun adına olan JN-135$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Novruzlu Təbriz Fəxrəddin oğlunun adına Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 19, ev 16$^{D}$ nömrəli fərdi yaşayış evinin MH-0054089 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kəndində yaşamış Kazımova Səkinə Əkbər qızının adına verilmiş 1143$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor müavini:
MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 020065441

Çapa imzalanmışdır 00:00

Nömrəyə məsul: Gülcamal Tahirova
Bülbül Quliyeva
Dizayner: Lətif Zeynalov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 293